**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**«MAGİSTRATURA MƏRKƏZİ»**

***Əlyazması hüququnda***

**Məmmədova Fidan Nazim qızı**
***(magistrantın s.a.a.)***

**«Modelləşdirmə və quraşdırma əməliyyatlarının uşaq geyimlərinin istehlak xassələrinə təsirinin ekspertizası» mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

| | | |
|---|---|---|
| **İxtisasın şifri və adı** | 060644 | İstehlak mallarının ekspertizası və marketinqi |
| **İxtisaslaşma** | | Qeyri-ərzaq məhsullarının ekspertizası və marketinqi |

| | |
|---|---|
| **Elmi rəhbər** | **Magistr proqramının rəhbəri** |
| (a.a.s., elmi dərəcə və elmi ad) | (a.a.s., elmi dərəcə və elmi ad) |
| dos. k.e.n. Z.M.Nağıyev | dos. k.e.n. Z.M.Nağıyev |

**Kafedra müdiri**

(a.a.s., elmi dərəcə və elmi ad) prof. Ə.P.Həsənov

# BAKI – 2018

# PLAN


**GİRİŞ** 3

**I FƏSİL. ƏDƏBİYYAT İCMALI** **5**

1.1. Uşaq geyimlərinin modelləşdirilməsi və quraşdırılmasının onların istehlak xassələrinə təsirinin ekspertizası 5

1.2. Uşaq geyimlərinin istehlak xassələrinin ekspertizası 8

1.3. Uşaq geyimlərinin keyfiyyətinə modelləşmənin təsirinin ekspertizası 21

**II FƏSİL. TƏDQİQAT HİSSƏSİ** **31**

2.1. Uşaq geyimlərinin keyfiyyət ekspertizası 31

2.2. Uşaq geyimlərinin markalanma və qablaşdırılması 34

2.3. Uşaq geyimlərinin saxlanması və onlara qulluq edilməsi 35

**III FƏSİL.** **38**

3.1. Uşaq geyimlərinin istehlak xassələrini formalaşdıran amillərin ekspertizası 38

3.2. Uşaq geyimlərinin orqanoleptiki və laboratoriya üsulları və ekspertizası 63

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** **70**

**ƏDƏBİYYAT** **72**

# GİRİŞ

Uşaq geyimləri hazır üst geyimindən, dəyişəkdən və baş geyimindən ibarətdir.

Uşaq geyimləri istehsalı ilə dövlət və özəl tikiş evləri məşğul olur.

Keçmişdə, demək olar bütün uşaq geyimləri kustarlar tərəfindənr və ev üsulu ilə hazırlanırdı. Tikiş fabrikləri az idi. Bunlarda istehsal təşkili primitiv halda idi v əvə məmulat tikişinin çox əməliyyatı əl vasitəsilə aparılırdı.

Müstəqil rekspublikamızda uşaq xgeyimləri istehsalı keçmişdəkindən kökündən fərqlənir. Burada məmulat istehsalı, demək olar tamamilə mexanikləşmiş, səhmdar cəmiyyətlərin çoxu yüksək əmək məhsuldarlığı təmin edən axın istehsal sisteminə keçirilmişdir.

Yeni müəssisələrin tikintisi və köhnə müəssisələrin kökündən olaraq yenidən qurulması sayəsində uşaq geyimləri buraxılışı durmadan artır.

Uşaq geyimləri buraxılışının artması ilə yanaşı olaraq bunların çeşidi də genişləndirilmiş və xeyli artmışdır. Uşaq geyimlərinin habelə keyfiyyəti də yaxşılaşmışdır.

Uşaq geyimləri sahmanlı olmalı və sərbəst tənəffüsü, qan dövranını və insanın hərəkətini sıxmamalı, öz formasını yaxşı mühafizə etməli, müəyyən hava keçirmək və hiqroskopiklik xasiyyətinə malik olmalı, həm də gözəl və incə olmaqla yaxşı tərkibə salınmalıdır.

Qış məmulatı insanın bədənini soyuqdan qorumalı, yay paltarı hava keçirməli və camaşir isə təri çəkməli və asanlıqla yuyulmalıdır.

Uşaq geyimləri qarşısında qoyulan əsas tələblərə müvafiqliyi bir sıra şərtlərdən asılıdır. Bu şərtlər məmulata lazım olan materialların düzgün seçilməsindən, həmin materialların keyfiyyətindən, məmulat modelinin keyfiyyətindən və habelə tikiş keyfiyyətindən və məmulata bəzək verilməsindən ibarətdir.

Uşaq geyimlərinə sərf edilən əsas material cürbəcür parçadan ibarətdir. Burada, habelə istilik verən materiallar, yəni pambıq, vatilin, vatin və xəz tətbiq olunur. Pambıq, bir qayda olaraq xam pambıqdan ibarət olur və ayrı-ayrı hallarda yun ilə qarışdırılır. Vatilin yayılmış və polotno şəklinə salınmış pambığa deyilir. Bunun bir tərəfi yapışqanlaşmış olur. Vatin ciddi didilmiş trikotajdan, yaxud tiftiklənmiş parçadan ibarətdir. Bunlar pambıqdan və ya yarımyundan olur. Xəzdən boyunluq biçilir, xəz həm də məmulata bəzək vermək üçün tətbiq olunur. Ayrı-ayrı hallarda bu pambıq, yaxud vatin əvəzində istilik materialı yerinə sərf edilir.

Geyim məmulatı istehsalında, habelə müxtəlif furnitura (düymə, qarmaq, çalkeçir və s.), krujeva və digər bəzək materialları tətbiq olunur.

# I FƏSİL. ƏDƏBİYYAT İCMALI

## 1.1. Uşaq geyimlərinin modelləşdirilməsi və quraşdırılmasının onların istehlak xassələrinə təsirinin ekspertizası

Uşaq geyimlərinin kütləvi istehsalı aşağıdakı standartlardan ibarətdir:

- modelləşdirmə əməliyyatı;
- konstruksiya əməliyyatı;
- biçim əməliyyatı;
- tikiş əməliyyatı.

Modelləşdirmə əməliyyatı gələcək məmulatın qabaqca eskiz şəklində və sonra hazır nümunə şəklində hazırlanmasından ibarətdir.

Məmulatın modeli hazırlananda, birinci növbədə onun təyinatı, yəni onun iş paltarı, yaxud bayırlıq paltarı olduğu, qış, yaxud yay paltarı, normal fiqurалı, yaxud kök və əksinə, arı qadam üçün və cavan, yaxud yaşlılar üçün olduğu nəzərə alınır. Məmulat təyinatının müəyyənləşdirilməsi parçanın və parçanın güllərinin, məmulatın özünün formasının, bəzək xarakterinin və s. amillərin seçilməsilə əlaqədardır. Əlbəttə gündəlik geyilən paltara nisbətən bayırlıq paltar üçün daha bahalı parçalar seçilir. Qış məmulatına, əksəriyyətlə tünd rəngli parçalar tətbiq olunur. Yay paltarları üçün isə açıq rəngli parçalar seçilir. Həddindən artıq kök, yaxud çox arıq istehlakçılar üçün model hazırlayan zaman bədənin qüsurlarını örtən məmulat formaları və müvafiq parçalar seçilir. Məlumdur ki, məsələn, optik xulya nəticəsində paltarın dikinə, yaxud kəcinə gedən zolaqlar fiquranın dolğunluğunu gizlədir və əksinə, horizontal zolaqlar fiqurada dolğunluq təsəvvürü yaradır. Ensiz zolaqlı parça fiquranı uzun, dama-dama güllən isə, əksinə kök göstərir və s [1,5].

Modelləşdirmədə habelə paltarın gigiyenik şərtləri, istehlakçıların zövqü və istehsalın texniki imkanları nəzərə alınır. Modelləşdirmə ölkənin zəhmətkeşlərinin hər cür zövqlərinin maksimal dərəcədə təmin olunması və sahmanlı, məqsədəuyğun və gözəl modellər yaradılması məqsədini güdür. Paltarın

modelləşdirilməsi ayrı-ayrı adamlar üçün deyil, istehlakçı kütlələri üçün aparılır. Burada əhalinin müxtəlif qruplarının tələbləri nəzərdə tutulur.

Paltar modelləşdirilməsi işilə, başlıca olaraq model evləri məşğul olur və həmin model evlərinin şəbəkəsi durmadan genişlənir. Hər bir hazırlanmış modeli ətraflı müzakirədən sonra model evləri və bədii şura təsdiq edir. Bədii şuraların tərkibinə sənaye və ticarət təşkilatlarının nümayəndələri, rəssamlar, modelçilər və s. daxil olur. Hər təsdiq olunmuş modelə müəyyən nömrə təhkim edilir.

Konstruksiya əməliyyatı məmulatın detallarının texniki çertyojlarının tərtib edilməsindən və həmin çertyojlara əsasən ülgülər (biçimlər) hazırlanmasından ibarətdir [2].

Üst paltarı və camaşirin konstruksiya əməliyyatında istehlakçının boyu və döş çevrəsinin yarısı (ölçüsü) əsas götürülür. İnsanın normal fiqurasının müəyyən mütənasibliyinə əsasən onun boy göstəricisinə gbrə paltarın əsas xətlərini müəyyənləşdirmək mümkün olur. Məsələn, məlumdur ki, insan bədəninin ümumi uzunluğunun yarısı oturaq xəttinə düşür və oturaq xəttindən insanın təpəsinə qədər məsafənin yarısı qoltuq xəttinə düşür. Oturaq xəttindən yuxarı insanın boyunun 1/10-ni götürüb 1 sm də üzərinə əlavə edilərsə, bel xətti alınır və s.

İstehlakçının döşünün səviyyəsində bədən çevrəsinin yarısını götürdükdə məmulatın eni müəyənləşdirilir. Məmulatın eni həmişə ölçü zamanı götürülən artırma hesbına bədənin çevrə ölçüsünün yarısınedan artıq olmalıdır. Həmin fərq isə məmulatın növündən və fyasonundan asılıdır.

Normal fiquradan çox fərqli fiquralı istehlakçılar, təbiidir ki, kütləvi qaydada tikilmiş məmulatdan istifadə edə bilməz. Bu şəxslərə fərdi sifariş qaydasında xidmət edilməlidir [9].

Biçim əməliyyatından məqsəd məmulatın bütün detallarının parçadan kəsilməsindən ibarətdir. Kütləvi qaydada paltar tikiləndə birqat parça deyil, birdən 10 sm-ə qədər qalınlıqda parça kütləsi biçilir. Bununla əlaqədar olaraq biçməzdən qabaq parçalar eninə, rənginə, gülünə və digər göstəricilərinə görə sortlaşdırılıb masa üzərinə sərilir və üst qatda tabaşir, yaxud boyaqla ülgü, yaxud xüsusi

əndazələrin köməyilə detalların kənarları cızılır. Bir-birinin üstünə sərilmiş parça qatları əldə idarə edilən elektrik biçim maşınları, yaxud lentvari stasionar elektrik bıçaqları ilə kəsilir. Biçilən detallar diqqətlə yoxlandıqdan sonra məmulat tikilməsinə uyğun dəst şəklində toplanır, nömrələnir, xüsusi kisələrə qablaşdırılır və tikiş sexinə göndərilir.

Tikiş əməliyyatı. Kütləvi tikiş istehsalında paltarın tikiş əməliyyat ayrı-ayrı detalların birikdirilməsindən, nəm-istilik əməliyyatından və məmulatın bəzək əməliyyatından ibarətdir. Detalların birikdirilməsi üçün müxtəlif tikiş maşınları, o cümlədən universal, xüsusi, yəni ziqzaq tikiş salan, örtülü tikiş salan və s. tikiş salan maşınlar tətbiq edilir.

Tikiş sənayesi paltar detallarının birləşdirilməsi üçün sintetik yapışqan tətbiq edir. Detalların yapışqan vasitəsilə birləşməsi, xüsusilə o cəhətdən maraqlıdır ki, burada əmək məhsuldarlığı və eləcə də paltarın davamı artır.

Nəm-istilik əməliyyatı məmulatın detallarının isti halda preslənib hamarlanmasından və sıxlaşdırılmasından, tikişlərin ütülənməsindən, ayrı-ayrı yerlərin ölçüsünün azaldılmasından, bəzi yerlərin isə dartılmasından, prçanı hamarlamaq üçün ütülənməsindən və parçanın üzərindəki parlaqlığın ləğv edilməsi üçün buxara verilməsindən ibarətdir.

Bəzək əməliyyatı məmulatda ilgək yerlərinin deşilməsindən və ətrafının ilməklənməsindən, furnitura tikilməsindən və habelə məmulatın əlavə bir sıra bəzək işlərindən, məsələn, qabarıqlıq, kant, qofre, plise və aplikasiyadan, naxış tikməkdən, krujeva ilə bəzənməsindən və s. ibarətdir. Qabarıq bəzəklər, yəni qabarıq zolaqlar yaratmaq üçün parçanın bükülən yerlərindən tikiş salınır, kant bir zolaq əlvan parçadan ibarət olaraq birləşdirilən detalların arasına qoyulur, beykalar məmulatın üzərinə tikilən parça zolaqları, qofre isə çoxlu miqdar qabarıq damarlardan ibarətdir ki, bunlar xüsusi qabarıqtörədən maşın vasitəsilə əmələ gətirilir. Plise bəzəyi narın şəkildə yaxşı ütülənmiş qırçınlardan ibarətdir, aplikasiyalar parçadan kəsilib məmulatın üzərinə tikilmiş naxışlardır [18].

## 1.2. Uşaq geyimlərinin istehlak xassələrinin ekspertizası

Ümumi qruplaşdırma. Uşaq geyimləri bir neçə əlamətə görə, məsələn, təyinatına, materialına, mövsümünə, ölçüsünə, boyuna, cins-yaş bölgüsünə, məmulat növünə, tikiş mürəkkəbliyinə və fasonuna görə qruplaşdırılır.

Təyinatına görə uşaq geyimləri məişət, formalı paltara, iş və istehsalat paltarına və milli paltara bölünür.

Məişət geyimləri geniş istifadə edilən hazır paltardan ibarətdir. Formalı paltar müxtəlif idarələrin işçilərinə, habelə tələbələrə məxsus paltara deyilir. İş və istehsalat paltarı müəyyən şəraitdə geyilən paltardan (kombinezon, pambıqlı sırıqlı geymələr və s.) və insanı tozdan, kirdən qoruyan paltardan (xalat, ləçək və s.) ibarətdir. Milli paltar Orta Asiya, Zaqafqaziya əhalisinə və digər rayonlara məxsus müəyyən fasonlu paltara deyilir.

Materialına görə uşaq geyimləri paltarı pambıqdan, kətandan, yundan, ipəkdən, rezin sürtülmüş parçalardan və süni plastikadan ibarət olur.

Mövsüm əlaməti paltarın istifadə dövrünü göstərir. Mövsüm cəhətcə paltar yay, qış və demisezon və mövsümdən kənar üst paltarına bölünür.

Cins-yaş bölgüsü uşaq geyimləri kişilərə, qadınlara və uşaqlara məxsus olduğuna işarə edir. Uşaq paltarı əlavə olaraq məktəb yaşlı oğlan, məktəb yaşlı qız və məktəb yaşına çatmamış uşaq və körpələr arasında bölünür.

Tikili üst paltarının ölçüsü (nömrəsi) şərti işarə təşkil edir. Ölçü bədənin döş çevrəsinin yarsından ibarət olaraq kişilərdə üst köynəyindən və qadınlarda isə dondan ölçülür [17].

Respublika texniki şərtlərində aşağıdakı ölçülü məmulat buraxılışı nəzərdə tutulmuşdur: kişilərə məxsus məmulat – 44, 46, 48, 50, 52, 54, 56, 58 və 60; qadınlara məxsus məmulat – 44, 46, 48, 50, 52, 54 və 56; məktəb yaşlı uşaqlara məxsus məmulat – 32, 34, 36, 38, 40, 42 və 44; məktəbəqədər yaşlı uşaqlara məxsus məmulat – 28 və 30; körpələrə məxsus məmulat – 22, 24 və 26.

Boy (uzunluq) tikili üst paltarının şərti olaraq uzunluğunu xarakterizə edir. Məmulatın boyu sıra nömrələrilə göstərilir. Yaşlı adamların üst paltarından, kişi kostyumu, kişi və qadınlara məxsus paltolar, plaşlar və qadın donları – beş boya, qadın kostyumu və yubkaları və kişilərə məxsus kurtkalar, tolstovkalar və gimnastyorkalar – dörd boya, yarımpaltolar, qadın jaketləri, bluzkaları və xalatları – üç boya, məktəb yaşlı uşaqlara məxsus məmulat – iki və üç boya və məktəb yaşına çtmamış uşaqlar və körpələrə məxsus məmulat – bir boya (uzunluğa) bölünür.

Beş boyda buraxılan məmulatda 160 sm qədər ucalığında kişilər və 154 sm qədər ucalığında qadınlar birinci boy sayılır; sonra 161-166 sm ucalığında kişilər və 155-160 sm ucalığında qadınlar – ikinci boy, 167-172 sm ucalığında kişilər və 161-166 sm ucalığında qadınlar – üçüncü boy, 173-178 ucalığında kişilər və 167-172 ucalığında qadınlar – dördüncü boy və 179-184 sm ucalığında kişilər və 173-178 sm ucalığında qadınlar – beşinci boy sayılır.

Ticarət təşkilatlarının sifarişi üzrə altıncı vəə yeddinci boylarda da tikili üst paltarı buraxıla bilər.

İstehlakçıların tələbatını yaxşı ödəmək üçün tikiş sənayesi hər ölçüdən olan tikili üst paltarını bir neçə boyda buraxır. Məsələn, 44-cü ölçüdə kişi kostyumları – birinci, ikinci və üçüncü boylarda buraxılır. 46-cı ölçüdə kişi kostyumları – birinci, ikinci, üçüncü və dördüncü boylarda, 48 və 50-ci ölçülər – bütün beş boyda, 52-ci ölçü – ikinci, üçüncü, dördüncü və beşiinci boylarda, e54-cü ölçü – üçüncü, dördüncü və beşinci boylarda və 56-cı ölçü isə üçüncü və dördüncü boylarda buraxılır.

Tikili üst paltarının növləri (nomenklaturası) olduqca müxtəlifdir. Məsələn, hazır paltarın çeşidinə palto, yarımpalto, bruşlat, kostyum, şalvar, kurtka, tolstovka, gimnastyorka, jaket, yubka, don, bluzka, xalat, sarafan və s. paltar növləri daxil olur [1-6].

Tikişin mürəkkəblik dərəcəsi (keyfiyyəti) cəhətdən məmulat ən əvvəlcə iki kateqoriyaya bölünür. Bunların birinə kütləvi (adi) tikiş, digərinə isə yüksək keyfiyyətli tikiş deyilir.

Kütləvi tikişli məmulat adi modellər üzrə olaraq hər növ parçadan tikilir. Bu modellərin xüsusiyyətlərindən asılı olmaqla kütləvi tikişli məmulat tikişin mürəkkəbliyi cəhətdən bir neçə (adətən 2-4) tikiş qrupuna bölünür.

Yüksək keyfiyyətli məmulat xüsusi modellər üzrə olaraq 36-cı qrupdan yuxarı yun parçalardan (qadınlara məxsus yüngül don 22-ci qrupdan yuxarı parçalardan), yaxud natural ipək parçalardan tikilir.

Fason etibarilə tikili məmulat çox cürbəcürdür.

Kişilərə məxsus hazır uşaq paltarının çeşidinə kostyum, pencək, şalvar, tolstovka, gimnastyorka, palto, yarımpalto və plaş daxil olur.

Kişi kostyumu iki məmulatdan, yəni pencək və şalvardan, yaxud üç məmulatdan, yəni pencək, şalvar və jiletdən ibarət olur.

Pencəyin hissələri arxasından, ətəyindən, boyunluğundan və qollarından ibarətdir.

Pencəyin arxası çox zaman kəsik olur və yan və çiyin tikişlə ətəklərə tikilir.

Ətəklərin qabaq hissəsinə yaxa deyilir. Yaxanın içəri tərəfinə əsas parçadan bir neçə zolaq qoyulur və buna yaxaaltı deyilir. Yaxaaltının qatlanan yuxarı hissəsi latsqan adlanır. Latsqan müxtəlif (iti düz, iti uca, küt, qısa və s.) formalarda olur.

Boyunluq üsst və alt hissədən ibarət olur. Boyunluğun alt hissəsinə boyunluqaltı deyilir. Boyunluq boğazlığa tikilir. Boyunluğu latsqanla birləşdirən qabaq tikiş «raskep» adlanır.

Pencəyin qolu iki hissədən ibarət olur. Bunlar qabaq və arxa (dirsək) tikişlə birləşdirilir. Dirsək tikişinin aşağısında «şlitsey» deyilən yarıq olur. Qol, «proyma» adlanan qol oyuğuna tikilir. Qolun yuxarı hissəsinə «okat» və aşağı hissəsinə, yəni ağzının qatlanan yerinə «manjet», yaxud «nipzok» deyilir.

Pencəyin iki qapalı kəsik, yaxud üstdən tikmə yan cibləri və son ətəyində listoçkalı bir yuxarı cibi olur. Listoçka əsas materialdan ibarət ensiz parça

zolağından ibarətdir. Pencəyin ətəklərində çox zaman kökləmələr salınır ki, bu da insanın belini qeyd edir və döşünün qabarıq göstərilməsinə kömək edir. Yaxa hissəsinin üzü ilə astarının arasına parusin və döş hissəsinə isə qıldan ibarət parça qoyulur. Bununla məmulatın forması bərkiyir və zahiri görünüşü yaxşılaşır. Yaxanın kənarına, möhkəm olsun deyə ensizz parça zolağı (köbə) qoyulur, ətəklərin və boyunluğun kənarları ya tikişsiz saxlanır, ya maşın vasitəsilə və yaxud da əl vasitəsilə buna tikiş salınır. Maşın tikişinə «vstroçku», əl tikişinə isə «vspuşku» deyilir [19].

Jilet iki ətəkdən və arxa hissədən ibarətdir. Ətəklər pencəyin materiallarından tikilir. Hər ətəkdə yuxarıdan və aşağıdan kəsmə ciblər açılır və ciblərin ağzına listoçka tikilir. Jiletin arxası pencəyin astarından olan parçadan tikilir və belinə, jileti daraltmaq üçün kəmərcik qoyulur.

Kostyum şalvarı bir cüt arxa və bir cüt də qabaq hissələrdən ibarətdir. Bunlar bayır tərəfdən yan tikişlərilə, içəri tərəfdən «addım» tikişilə və oturacaq yerindən isə «slonka» tikişilə bitişdirilir. Şalvarın qabaq tərəfindəki yarığına bant deyilir. Bantın sağ tərəfinə düymələr tikilir və buna «otkosok», sol tərəfində isə ilgəklər açılır və buna «qulfik» deyilir. Şalvarın bel hissəsinə kəmər salmaq üçün «şlevkalar» tikilir və bir az aşağısında isə iki qurşaqcığı olur. Şalvarın iki yan cibi, bir saat cibi (bel xəttində) və bir arxa cibi olur. Şalvarın aşağısına manjet qoyulur.

Kostyumlar bir sıra əlamətlərə görə bir-birindən seçilir. Materialca kostyumlar yundan, pambıqdan, kətandan və ipəkdən ola bilər. Kətan və ipək kostyumlar astarsız tikilir və yüngül olur. Kostyumun tərkibinə daxil olan məmulatın sayına görə bunlara ikilik kostyum və üçlük kostyum deyilir. Pencəyin quruluşuna görə kostyumlar təkyaxa və cütyaxa olur. Təkyaxa pencəyin düymələri yalnız sağ ətəkdə, cütyaxa pencəyin düymələri isə hər iki ətəkdə tikilir. Cütyaxa pencəkdə bir ətək o biri ətəyin üstünə təkyaxa pencəkdəkindən çox keçir. Kostyumların fasonu cürbəcürdür.

Kostyumun fasonu pencəyin quruluşundan, uzunluğundan, latsqanın formasından və digər biçim və tikiş xüsusiyyətlərindən asılıdır [20].

Şalvardan asatılan kişi pencəkləri yun və ipək parçalardan tikilir və bunlar təkyaxa, cütyaxa və müxtəlif fasonlarda olur.

Pencəkdən ayrı satılan şalvar fason cəhətcə adi, idman (qolf) və suvari şalvarı və bridj fason suvari şalvarlarına bölünür.

Manjetli və manjetsiz şalvarlar kişi kostyumu tikilən parçalardan hazırlanır. Yun parçadan olan şalvarın aşağısı müxtəlif endə olur.

İdman şalvarı enli və bütün boyca bir bərabərlikdə də olur. Bunların aşağısına manjet qoyulur və iki düymə tikilir. Bu şalvarlar yun və pambıq parçadan hazırlanır.

Suvari şalvarının yuxarı hissəsi gen oval şəklində v ədizdən aşağısı isə kip tikilir və bunların aşağısı üzəngili olur. Suvari şalvarı bir qayda olaraq saya rəngli yun və pambıq parçalardan tikilir.

Suvari tipli şalvarın da yuxarısı gen, oval şəklində, lakin bir qədər başqa cür olur. Bu şalvarın arxasında dizinin tuşunda, kip dursun deyə eninə tikişi olur və dizdən aşağısı isə düymələnir. Bu şalvarlar yalnız yun parçadan tikilir və adətən saya rəngli olur. Bu şalvarı altlılar geyir.

Kurtka pencəkdən fərqlənərək təkcə təkyaxa olur və yuxarıya qədər düymələnir. Bunların xırda qatlama boyunluğu, yaxud latsqanı olur. Kurtkanın arxasına, adətən kəmər tikilir.

Kurtkalar yun, pambıq, kətan və ipək parçalardan tikilir. Yun kurtkalar, yun parçadan və astarlı, pambıq parçadan, kətandan v ipəkdən tikilən kurtkalar isə astarsız olur.

Tolstovkalar zahiri görünüş8cə kurtkalara oxşayır. Tolstovkalar yun və pambıq parçalardan tikilir və yuxarıya qədər düyməli, yaxud açıq, kəmərli, yaxud yrımkəmərli və sadə olur. Sadə tolstovkalar adətən hamar (büzməsiz) və çin-çin tikişli tolstovkalar isə ya hamar, yaxud da büzməli olur.

Gimnastyorkalar yun və pambıq parçalardan tikilir və bunlara qatlama, yaxud iki düyməli dik boyunluq qoyulur. Gimnastyorkaların yuxarıdan bir cüt kəsik, yaxud üstdən tikilmə cibi olur [1,6,35].

Palto mövsümə görə qış, demisezon, yay və mürəkkəb quruluşlu palto növlərinə bölünür.

Qış paltolarına istiləşdirən materiallar (pambıq, vatin və vatilin) qoyulur. Bunların boyunluğu öz parçasından, yaxud da xəzdən və astarı isə pambıq parçadan, yaxud ipək parçadan olur. Qış paltosu cütyaxa və təkyaxa, gen və beli kip, yarımkəmərli və yarımkəmərsiz, yaxud da kəmərli tikilir. Qış paltosunun boyunluğu düz, yaxud şalfason, qolları adi və reqlan (boğazlığından başlanan) tikişli olur.

Qış paltosu nazikmahut və qabamahut ağır yur parçalarından (drap, bobrik, mahut və s.) tikilir.

Demisezon paltoların, qıh paltolarından fərqli olaraq istiləşdirici materialı olmur. Bunlar təkyaxa və cütyaxa, kəmərsiz, yaxud yarımkəmərli, düz boyunluqlu və şalfason boyunluqlu, adi və reqlan qollu tikilir. Ağır yun parçalardan tikilən demisezon paltolaar belə qədər astarlı (nisbətən ucuz parçalardan), yaxud aşağıya qədər bütöv astarlı olur.

Yay paltoları daraqlı yan parçalardan, sukeçirməyən plaşlıq ipək parçalardan və rezin sürtülmüş pambıq, yun və ipək parçalardan tikilir. Bunlar, əksəriyyətlə təkyaxa fasonda və bütöv astarlı olur, qolları isə adi və reqlan fasonda tikilir.

Mürəkkəb quruluşlu paltolar ilin müxtəlif dövrlərində tətbiq edilir. Bunların açılıb-düymələnən boyunluğu və sırıqlı satin astarı olur. Bu paltolar əksəriyyətlə yun parçadan təkyaxa fasonda və kəmərli tikilir və qolları çox zaman reqlan fason olur ki, sırıqlı astarsız geyəndə çox gen görünməsin.

Yarımpaltolar paltolardan qısa və adətən iki əlavə dikinə kəsilmiş (mufta) cibli olur.

Mövsümünə görə yarımpaltolar qış və demisezon paltolarına bölünür.

Qış yarımpaltoları yun və pambıq parçalardan tikilir və bunların xəzdn və parçadan müxtəlif fasonda boyunluğu olur.

Demisezon yarımpaltolar yun parçalrdan tikilir. Bunlar təkyaxa, cütyaxa, yarımkəmərli və kəmərli olur [42].

Kişi plaşları geniş tətbiq edilən paltar növü olaraq pambıq parçalardan (diaqonaldan, koverkotdan vəə s.) və vinilit və tekstovinit adlı xüssi materiallardan tikilir. Vinilit pambıq parçadan (çit, satin və s.) ibarət olub, üstünə nazik qat parlaq polivinilxlorid plastikatı sürtülür.

Tekstovinit də vinilit kimi polivinilxlorid plastikatı sürtülmüş pambıq parçadan ibarətdir. Həmin maddə preslənərək parçanın üzərində gön naxışı yaradır. Vinilit və tekstovinitin mühüm qüsuru onların şaxtaya qarşı davamsız olmasıdır. Bunlar sıfırdan 20-25$^{o}$ aşağıda kövrəkləşir.

Pambıq və kətan parçalardan olan plaşlar (tozluq plaşlar) cütyaxalı tikilir və bunlara kapyuşon (başlıq) düymələnir. Vinilit və tektovinitdən olan plaşlar həm təkyaxalı, həm də cütyaxalı tikilir. Bunların qolları isə adi və reqlan fasonda olur.

Qadınlara məxsus tikili üst paltarı. Kişilərə məxsus üst paltarına nisbətən qadın paltarı bir sıra xüsusiyyətlərə malikdir. Məsələn, qadın məmulatı sağ tərəfə deyil, sol tərəfə düymələnir və astarı aşağıdan tikişsiz, yəni üst parçasına bərkidilməmiş halda buraxılır. Qadın paltarının ilgəkləri çox zaman ilməklənmiş deyil, tikilmiş olur. Qadın fiqurasının xüsusiyyətlərinə müvafiq olaraq qadın məmulatının biçimi kişi məmulatından xeyli fərqlənir.

Qadınlara məxsus tikili üst paltarının çeşidinə kostyum, kostyum jaketi, bluzka, yubka, don, don-kostyum, don-palto, xalat, sarafan, palto, yarımpalto, qış jaketi və plaş daxil olur.

Qadın kostyumu, adətən jaket və yubkadan, bəzən də jaket, yubka və jiletdən ibarət olur.

Qadın kostyumu yun parçalardan (triko, şeviot, koverkot, qabardin, boston və s.), pambıq parçalardan (triko, koverkot, diaqonal, roqojka, pike və s.) və kətan parçalardan (polotno) tikilir.

Qadın kostyumlarının, xüsusən yun parçadan olan qadın kostyumlarının fasonu çoxdur. Bu fasonlar həm jaketin, həm də yubkanın fasonundan asılıdır. Qadın kostyumlarının jaketi gen, yarımkip və kip fasonlarda, kəmərli, kəmərsiz,

kəsmə cibli, üstdən qoyma cibli, normal uzunluqda, uzadılmış və yubkası isə hamar və müxtəlif büzməli ola bilər.

Kostyum jaketləri müxtəlif fasonlarda olaraq yun parçalardan tikilir. Bəzən bu jaketlər ipək parçalardan müxtəlif fasonlarda tikilir.

Bluzkalar materialına görə ipək, pambıq və kətan parçalardan tikilir. İpək bluzkalar krepjorjet, krepdeşin, krep-armyur, polotno və s. parçalardan hazırlanır. Pambıq parçadan olan bluzkalar çit, satin, batist, markizet, pletyonka, eponj və s. parçalardan, kətan parçalardan olan bluzkalar isə polotno adlı parçadan hazırlanır. Qadın bluzkası cürbəcür fasonlarda, məsələn, hamar, büzməli, boyunluqlu, boyunluqsuz, uzun qollu və qısa qollu olur. Yubkanın üstündən geyilən bluzkanın aşağısı kəmərli, rezinli, yaxud qırçınlı olur. Hamilə qadınların bluzkası gen, uzun və cibli olur.

Yubkalar yun, ipək, kətan və pambıq parçalardan tikilir.

Yun parçalardan olan yubkalara kamvol yun parçaları və nazikmahut parçalar tətbiq edilir. Bunlar düz, bəzən isə klyoş, büzməli, qofre və plise fasonlarda, cibli və cibsiz tikilir.

İpək yubkalar polotno, krepdeşin, krep-satin, krep-maroken, krep-armyur və s. parçalardan tikilir. Bunlar, adətən çin-çin, müxtəlif büzməli, cibli və cibsiz olur.

Pambıq parçadan olan yubkalar kostyumluq trikodan, diaqonaldan, koverkotdan, velvetondan, idman zamşasından və s. parçalardan, kətandan olan yubkalar isə polotnodan, kolomyankadan tikilir və adətən çin-çin, cibli və cibsiz fasonlarda olur.

Donlar materialca yundan, ipəkdən, pambıq və kətan parçadan olur. Yun parçalardan olan donlar donluq kamvol və nazik mahud parçalardan (kişmir, kord, zvezdoçka, şotlanka, armyur, donluq parça və s.) tikilir. İpək parçalardan don üçün krep-jorjet, krepdeşin krep-armyur, krepsatin, faydeşin, polotno, markizet və digər natural və süni ipəkdən olan parçalar, pambıq parçalardan çit, satin, volta, pletyonka, kişmir, şotlanka, eponj və s., kətan parçalardan isə polotnolar tətbiq edilir [7].

Donların fasonları çox cürbəcürdür. Bunlar donun biçim xarakterindən (hamar, yaxud büzməli, bütöv, yaxud beli kəsik, düz, yaxud klyoş və s.), qollarının ölçüsündən və formasından (adi, reqlan, uzun, qısa, manjetli, manjetsiz və s.) və boyunluğunun formasından asılıdır.

Təyinatına görə donlar gündəlik ev və iş üçün, bayırlıq (küçə, teatr və axşam üçün) və xüsusi təyinatlı olur. Gündəlik ev donu, adətən ucuz və asan yuyulan parçalardan və nisbətən sadə fasonda və sadə bəzəkli tikilir. İş üçün olan don, sadə ağır formada müxtəlif parçalardan tikilir. Bayırlıq donlar çox zaman baha qiymətli parçalardan və daha mürəkkəb fasonlarda müxtəlif bəzəklərlə yaraşığa salınır. Axşamlıq donlar əksəriyyətlə uzun və müxtəlif fasonlarda ipək parçalardan tikilir. Xüsusi təyinatlı don çeşidinə yol, idman, hamilə qadınlar və toy üçün olanlar daxildir.

Don-kostyum deyilən paltar növü kostyum kimi jaketdən və yubkadan, yaxud jaketdən və dondan ibarət olur, lakin jaket burada yüngül və astarsız tikilir. Don-kostyum əsas etibarilə don üçün tətbiq edilən parçalardan tikilir, lakin çox nazik parçalar burada əlverişli sayılmır. Don-kostyumların fasonu müxtəlifdir. Burada jaketin fasonu və yubkanın fasonu nəzərə alınır.

Don-palto don yerinə bluzka ilə və palto əvəzinə isə donun üstündən geyilir. Quruluş cəhətcə don-palto aşağıdan yuxarı düyməli (cütyaxalı) və yalnız beli düyməli şəkildə olur. Don-paltoların fasonu müxtəlifdir. Don-palto, adətən uzun tikilir və burada yun, ipək, kətan və pambıqdan olan donluq parçalar tətbiq edilir.

Xalat – evdə geyilən uzun və qabağı başdan-başa kəsik məmulat növündən ibarətdir. Xalatlar müxtəlif fasonlarda – düz, klyoş, bütöv, belik kəsik, qolu uzun və qolu qısa, kəmərli, kəmərsiz, cibli və cibsiz olur. Xalatlar, adətən ipək və pambıq parçalardan tikilir və burada peçatlı və parlaq güllü parçalar tətbiq edilir.

Sarafan – xüsusi biçimli don olmaqla qolsuz, adətən beli dərin yarıqlı və çiynində enli aşırmalar tikilir. Sarafanın döş hissəsi açıq və bağlı, düyməli və düyməsiz, koftalı və koftasız olur. Sarafanlar əksəriyyətlə ipək və pambıq

parçalardan tikilir. Arxası və döşü bağlı yun sarafan və kətan sarafan nisbətən az tikilir [10].

Qadın paltosu mövsümi əlamətinə görə qış, demisezon və yay paltolarına bölünür.

Qış paltosunun istiləşdirici materialı (pambıq, yaxud vatin) olur. Qış paltoları müxtəlif yun parçalardan, habelə tiftikli ipək parçalardan tikilir. Qış paltolarının boyunluğu, adətən xəzdən olur və müxtəlif fasonlarda tikilir, bəzən boyunluq parçadan da olur.

Qış paltoları təkyaxa və cütyaxa, gen biçimli, yarımkip və kip, hamar və müxtəlif qabarıqlı bəzəkli, cibli və cibsiz olur.

Demisezon paltoların istiləşdirici materialı olmur. Bunlar, adətən qış paltosundan daha ağır yun parçalardan, o cümlədən drap, bobrik, bayka, mahut və s. parçalardan tikilir və içinə yuxarıdan aşağı astar qoyulur. Demisezon paltolar təkyaxa və cütyaxa, gen, kip, yarımkip, kəmərli, kəmərsiz, adi qollu, reqlan qollu, boyunluqlu, boyunluqsuz, cibli və cibsiz tikilir.

Yay paltoları demisezon paltolarına nisbətən daha nazik parçalardan, o cümlədən kamvol yun parçalarından, ipək parçalardan (krepdeşin, krep-satin, krep-qranat, faydeşin və s.) və habelə rezin sürtülmüş parçalardan tikilir. Yun parçadan olan paltolara yuxarıdan aşağıyadək astar qoyulur. İpək parçadan olan paltolar isə astarsız olur.

Qadınlara məxsus yarımpalto, qış üçün olaraq yun və pambıq parçalardan cütyaxa fasonlu tikilir və parçadan da boyunluq qoyulur. Yarımpalto həm də demisezon və yay üçün yun parçalardan tikilir.

Qış jaketi tiftikli ipək parçalardan tikilir və bunlara öz aprçasından boyunluq qoyulur. Jaketlər müxtəlif fasonlarda hazırlanır.

Qadın plaşları təkyaxa və cütyaxa olur. Bunlar şifon üzərində vinilitdən və vinilxlorid plastikatından tikilir. Örtük-plaş deyilən məmulat xalis plastikadan olur.

Uşaqlara məxsus hazır üst paltarlarının bütün çeşidi aşağıdakı qruplara bölünür:

- məktəb yaşlı oğlan uşaqlarına məxsus hazır paltar;
- məktəb yaşına qədər olan oğlan uşaqlarına məxsus hazır paltar;
- məktəb yaşlı qızlara məxsus hazır paltar;
- məktəb yaşına qədər qız uşaqlarına məxsus hazır paltar;
- körpələr üçün olan hazır paltar.

Məktəb yaşlı oğlan uşaqlarına məxsus olan tikili üst paltarı palto, yarımpalto, buşlat, kostyum, şalvar, kurtka, tolstovka və gimnastyorkadan ibarətdir [18].

Oğlan uşaqlarına məxsus paltolar qış, demisezon və yay paltolarına bölünür. Quruluşca bunlar kişi paltosuna oxşayır, lakin bu paltoların fasonu bir o qədər müxtəlif olmur.

Qış paltosu qabamahud, yarımyun, nazikmahud və pambıq parçalardan tikilir. Demisezon paltolar qabamahud parçalardan və yarımyun nazikmahud parçalardan, yay paltoları isə rezin sürtülmüş parçalardan tikilir.

Qış və demisezon yarımpaltolar nisbətən ucuz qabamahud və yarımyun nazikmahud parçalardan tikilir.

Buşlat qış və demisezon geyimdir. Bu, yarımpalto qısadır. Buşlatın qollarında bu və ya digər nişanı olur və boyunluğuna və qoluna qızılı rəng qaytan tikilir.

Oğlan uşaqlarına məxsus kostyumlar yun, pambıq və kətan parçalardan tikilir və bir neçə növə bölünür. Bunlar adi kostyumdan, yəni uzun şalvar və pencək, yaxud kurtkadan, idmançı kostyumlarından, yəni pencək və qalife fason şalvardan, flot kostyumundan və uzun şalvardan və matros kostyumundan, yən6i matros bluzundan və qısa şalvardan ibarətdir.

Tək şalvar yun, kətan və pambıq parçalardan tikilir. Bunlar, adətən adi fasonda, idmançı fasonunda və qısa fasonda olur.

Oğlan uşaqlarına məxsus tolstovkalar yaşlılara məxsus tolstovka kimi çin-çin və sadə fasonda, yun, kətan və pambıq parçadan tikilir.

Kurtkalar və gimnastyorkalar yun və pambıq parçalardan tikilir [24].

Məktəb yaşına qədər oğlan uşaqlarına məxsus tikili üst paltarı çeşidinə, əsas etibarilə məktəb yaşlı oğlan uşaqlarına məxsus məmulat daxil olur. Təkcə yay paltosu, yarımpalto, tolstovka və gimnastyorka məktəb yaşına qədər oğlan uşaqlarına tikilmir.

Məktəb yaşlı qız uşaqlarına məxsus tikili hazır üst paltar çeşidinə palto, kostyum, don, don-kostyum, bluzka, yubka, sarafan, xalat, fartuk və örtük daxil olur.

Qız uşaqlarına məxsus qış, demisezon və yay paltoları qadın paltosu kimi tikilir, lakin fason bölgüsü az olur. Qış paltosu yun və pambıq parçalardan habelə ipək plyuşdan, demisezon paltosu nazik yun parçalardan və yay paltosu iəs yun parçalardan və rezin sürtülmüş parçalardan tikilir.

Qız kostyumları adi və matros fasonlarında tikilir. Adi kotyumlar jaket və yubkadan, matros kostyumu isə bluzka və yubkadan ibarət olur.

Qız donları müxtəlif fasonlarda olaraq yun, ipək, pambıq və kətan parçalardan tikilir. Bunlar bütöv və kəsik, hamar, müxtəlif cür büzməli, uzunqollu, qısaqollu, cibli və cibsiz fasonlarda olur.

Qız uşaqlarına məxsus don-kostyum qadınlara məxsus don-kostyum tipində yun, ipək, pambıq və kətan parçalardan tikilir.

Qız uşaqlarına məxsus bluzka, sarafan və xalat qadınlara məxsus həmin məmulatdan fasonlarının məhdud olması ilə fərqlənir.

Qız uşaqlarına məxsus fartuklar donluq yun parçalardan, ipək parçalardan və pambıq parçalardan tikilir və bunlara çiyinlik, valan, yaxud qanad qoyulur. Bunların salınma döşü və yaxud qırçını olur.

Örtüklər vinilxlorid plastikatından və başlıqlı fasonda tikilir.

Məktəb yaşına qədər olan qız uşaqlarına məxsus tikili üst paltarının çeşidi, əsas etibarilə məktəb yaşlı qız uşaqlarına məxsus məmulatdan ibarət olur. Təkcə rezin sürtülmüş paltolar, adi kostyumlar, don-kostyumlar və xalatlar bura daxil edilmir [26].

Körpələrə məxsus tikili hazrır paltar çeşidinə yun, pambıq və ipək pluş parçalardan qış paltoları, yun parçalardan demisezon paltoları, yun və pambıq parçalardan yay paltoları, yun, pambıq, kətan parçalardan kostyumlar, pambıq və kətan parçalardan aşırma fasonda tikilmiş şalvarlar, yun, pambıq, ipək və kətan parçalardan tikilmiş qız donları, pambıq parçadan tikilmiş açıq döşlü, aşırmalı sarafanlar, fartuklar və çiyin örtükləri daxil olur.

Uşaq məmulatının yaş etibarilə bölgüsü. Uşaqlara məxsus hazır paltar yaş etibarilə, təxminən aşağıdakı ölçülərə ayrılır: 28-30 №-li 4-6 yaşındakı uşaqlar üçün; 32 №-li 7 yaşındakı uşaqlar üçün; 34-36 №-li 9-11 yaşındakı uşaqlar üçün; 38-40 №-li 12-15 yaşındakı uşaqlar üçün; 42-44 №-li 16-17 yaşındakı yeniyetmələr üçün [30].

## 1.3. Uşaq geyimlərinin keyfiyyətinə modelləşmənin təsirinin ekspertizası

Təyinatına görə camaşir 3 qrupa, yəni dəyişək, yataq ağları və aşxana ağlarına bölünür.

Dəyişəklər. Cins-yaş əlamətinə görə dəyişəklər kişi, qadın və uşaq dəyişəyinə bölünür.

Kişi dəyişəyinin çeşidinə üst köynəkləri, döşlüklər, boyunluqlar, manjetlər, alt köynəkləri, kalsonlar, qısa tumanlar və pijamalar daxil olur.

Üst köynəkləri bir neçə tipdə buraxılır. Bunlar boyunluğu düyməli, boyunluğu tikili, boyunluğu fiqurlu, idmançı, yanyaxa və ukrainka fasonlarına ayrılır.

Boyunluğu düyməli üst köynəkləri iki əlavə boyunluqla birlikdə buraxılır. Bu köynəklər pambıq parçalardan (zefir, zefirin, kolxoz köynəkləri, tualdenor, patriotik, çit, poplin, şifon, reps, tafta və s.) və ipək parçalardan (polotno, krep-praizen, poplin, şotlanka və s.) tikilir. Adətən bu köynəklərin qolunun ağzına manjet qoyulur.

Boyunluğu tikili üst köynəklərinin qolunun ağzınhda təkqat və ikiqat manjet olur və bəzən bu köynəklərin üstündə ehtiyat boyunluğu verilir. Bu köynəklər də boyunluğu düyməli köynəklərə sərf edilən parçalardan tikilir.

Boyunluğu fiqurlu üst köynəklərinin qatlanan və arxadan düymələnən boyunluğu olur. Bu köynəyin həm də sol döşündə qapalı cib qoyulur. Bunlar dama-dama parçalardan və adətən şotlankadan, şerstyankadan, yaxud pletyonkadan tikilir.

İdmançı köynəkləri istər pambıq parçadan (pletyonka, roqojka, sport) və istərsə də ipək parçadan enli boyunluqlu fasonda tikilir. Bunların qolları uzun və cibi olur [3].

Yanyaxa köynəklərin qeyrilərindən fərqi odur ki, bunların boyunluğu düz və dik olur və yan tərəfdən 4 düymə ilə (2 düymə köbədə və 2 düymə boyunluqda)

düymələnir. Bunların qolları hamar və mangetsiz olur. Yanyaxa köynəklər saya və ağ pambıq parçalardan (satin, çit), kətan polotnolardan və habelə ipək parçalardan (polotno, pike və s.) tikilir. Yanyaxa köynəyin boyunluğuna, köbəsinə, qollarının ağzına və ətəyinin aşağısına çəki naxışı vurula bilər.

Ukrainka köynəklərinin ortası kəsilmə olur və burada örtülü olaraq düymə tikilir, boyunluğu qatlama olur. Bu köynəklər kətan və pambıq parçalardan (polotnodan), kətandan (bəzən ipək polotno və çesunçadan) tikilir. Boyunluğu, qabağında olan köbəsi, qollarının ağzı və bəzən ətəyi çəki naxışı ilə bəzədilir.

Üst köynəklərinin ölçüsü boyunluğunun uzunluğundan götürülür və 36-dan 46 nömrəyə qədər olur. Köynəklərin ölçüsü həm də döş çevrəsinin yarısından hesablanır və 42-dən 62 nömrəyə qədər olur.

Hər ölçüdə olan köynək üç boyda buraxılır.

Döşlük kişilərə məxsus üst köynəyinin qabaq hissəsindən ibarətdir. Döşlüyün boynundan keçən iki qanadı olur. Döşlük yaraşıqlı dursun deyə, onu zaponka vasitəsilə alt köynəyin boyunluğunun dik hissəsinə bənd etmək lazımdır. Döşlük pambıq parçadan tikilir. Bunların ölçüsü üst köynəklərinin ölçüsü kimi olur.

Manjetlər bir qayda olaraq döşlüyə əlavə edilir. Bunlar da döşlüyə sərf edilən materiallardan tikilir.

Boyunluqlar təkqat və ikiqat olur. Təkqat boyunluqlar ağ pambıq və kətan parçalardan hazırlanır və gimnastyorkaların boyunluğuna tikilir. İkiqat boyunluqlar yumşaq və cod (nişastalı) olur və bunlar şifon və s. parçalardan tikilir.

Alt köynəkləri madapalam, bez, polotno və digər parçalardan müxtəlif fasonlarda tikilir.

Ən çox yayılmış alt köynəklənrinin yaxası yarıq və köbəli olur və iki düymə ilə düymələnir. Bunların qabaq hissəsi büzməli, arxası çin-çin və yan tikişləri isə aşağıda şlitsey deyilən yarıqla qurtarır və ucları yuvarlaq olur [7].

Az yayılmış alt köynəyinin yaxası bağlı olur və bir düymə ilə düymələnir. Bunlar büzməli və büzməsiz, arxası çin-çin və çinsiz, adi qollu və manjet bərkitmək üçün uyğunlaşdırılmış olur.

Alt köynəklərinin ölçüsü istehlakçının bədən çevrəsinin yarısından götürülür və 44-dən 62 nömrəyə qədər olur. Bundan başqa, köynəklərin ölçüsü həm də insanın boynunun çevrəsindən götürülür və 37-dən 46 nömrəyə qədər olur. 48, 50 və 52 nömrəli köynəklər üç boyda, yerdə qalanlar isə iki boyda buraxılır.

Tuman qrinsbon, tik-lastik, bez və s. pambıq parçalardan tikilir.

Əksəriyyət tumanın fiqurlu kəməri və qabaqdan iki ilgəyi və iki düyməsi, arxadan isə iki ədəd əhərəsi bir düyməli kəmərciyi olur. Tumanın aşağısında bir düymə ilə bağlanan manjeti olur. Az yayılmış tumanın düz və qabaqdan bir qədər enli kəməri olur və qabaqdan iki ilgək və iki düymə ilə düymələnir. Bu tumanın arxadan bir kəmərciyi və aşağısında isə bağı olur.

Tumanların ölçüsü şərti olaraq istehlakçının bədən çevrəsinin yarısından götürülür və işarələnir. 48, 50 və 52 №-li tumanlar üç boyda, yerdə qalanları isə iki boyda buraxılır.

Trusılar (qısa tuman) saya, yaxud ağ pambıq parçalardan (satin, bez) tikilir. Trusıların ölçüsü tumanların ölçüsü kimi işarələnir və hamısı bir boyda buraxılır. Futbol üçün olan trusıların qıçları bir qədər uzun olur və belinə ikiqat rezin salınır.

Kişi pijaması müxtəlif fasonlu kurtkadan və şalvardan ibarət olur. Pijama şalvarının beli düyməli, yaxud rezinli ola bilər. Pijamalar pambıq və ipək parçalardan tikilir.

Qadın dəyişəyinin çeşidinə köynək, kombinasiya, pantalon, trusı, byustqalter, pijama və plyaj kostyumu daxil olur [8].

Qadın köynəkləri təyinatına görə gecəlik və gündüzlük olur. Gecəlik köynəklər uzun, qolu qısa, yaxud qolu uzun, gündüzlük köynəklər isə çiyinlikli və aşırmalı olur. Qadın köynəkləri pambıq parçalardan  və ipək parçalardan tikilir. Qadın köynəklərinin ölçüsü 44-dən 56-dək olur və hər ölçü üç boyda buraxılr.

Kombinasiyaların gündüzlük köynəklərdən fərqi odur ki, bunların biçimi bel hissəsində köklənmiş olur və bir qədər uzun tikilir. Kombinasiyalar da köynəklərin ölçüsündə buraxılır.

Pantalon quruluşuna görə rezinli və kəmərli fasonlara bölünür. Pantalonlar bez, madapalam, şifon, nansuk, batist və mayyadan, isti pantalonlar isə bamazı, flanel və baykadan tikilir. Pantalonların ölçüsü şərti olaraq köynəklərin ölçüsü kimi işarələnir.

Qarnitur aşırmalı köynəkdən və beli rezinli, yaxud kəmərli pantalondan ibarət olur.

Qadınlara məxsus trusılar, adətən satin parçadan tikilir, belinə rezin salınır və 44-56 ölçülərdə buraxılır.

Byustqalter pambıq parçalardan (madapalam, şifon, nansuk, batist, mayya, volta və s.), ipək parçalardan (polotno, poplin, fulyar, markizet, krepdeşin və s.), tüldən və tül ilə ipəkdən tikilir. Byustqalterlərin fasonu müxtəlifdir. Bunların fasonu düymələnməsinin xarakterindən (qabaqdan, yaxud arxadan), kəmərinin enindən (ensiz, yaxud enli), düyməsinin sayından və yuvalarının quruluşundan (girdə tikişli, köklənmiş) asılıdır. Byustqalterlərin bir növünə byustqalter-lif deyilir. Bunun arxası 12-17 sm ucalığında olur və 5-8 düymə ilə düymələnir. Byu3stqalterlərə sıra nömrəsi qoyulur, ən xırdası 1 və ən irisi 7 olur.

Qadın pijaması kurtkadan və şalvardan ibarətdir. Qadın pijamasının kurtkası hamar və büzməli, kəmərli, yaxud yarımkəmərcikli, şalvarı isə beldən rezinli, yaxud kəmərli olur. Qadın pijamaları, əksəriyyətlə zolaqlı ipək parçalardan (polotno, krepdeşin, krep-qranit və s.) və habelə pambıq parçalardan (velvet-rubçik, yarımməxmər, lionez, tafta, satin, flanel və s.) tikilir.

Plyaj kostyumu bir, yaxud bir neçə məmulatdan ibarət olur. Çox zaman plyaj kostyumuna byustqalter, qısa tuman və qısa klyoş yubka daxil edilir. Bu kostyumlar hər ölçüdə olaraq çit, satin, mayya və habelə ipək parçalardan tikilir.

Üzgü kostyumu byustqalter və üzgü tumanından ibarətdir. Bunlar satin, yaxud lastik parçasından tikilir və əlvan satin parçası ilə bəzədilir [15].

Uşaq dəyişəyi aşağıdakı qruplara bölünür:

- məktəb yaşlı oğlan uşaqlarına məxsus dəyişək;
- məktəb yaşına qədər oğlan uşaqlarına məxsus dəyişək;
- məktəb yaşlı qız uşaqlarına məxsus dəyişək;
- məktəb yaşına qədər qız uşaqlarına məxsus dəyişək;
- körpələrə məxsus dəyişək.

Məktəb yaşlı uşaq dəyişəyinin çeşidinə hər fason üst köynəkləri, açıq yaxalı alt köynəkləri, tuman, trusı və pambıq parçadan olan pijamalar daxil olur.

Məktəb yaşına qədər oğlan uşaqlarına məxsus dəyişək çeşidinə boyunluğu tikili üst köynəkləri, idmançı köynəyi, fiqurlu boyunluqlu köynək, yanyaxa və ukrayna köynəkləri, açıq yaxalı alt köynəyi, tuman, trusı, pijama, fartuk və lifçik daxil olur.

Məktəb yaşlı qız uşaqlarına məxsus dəyişək, qadın dəyişəyindən fərqli olaraq yalnız pambıq parçalardan tikilir. Bu dəyişəyin çeşidinə gündüzlük və gecəlik köynəklər, kombinasiyalar, pantalonlar, trusılar və plyaj kostyumları daxil olur.

Məktəb yaşına qədər qız uşaqlarına məxsus dəyişək çeşidi köynək, kombinasiya, pantalon, trusı, fartuk və lifçikdən ibarətdir.

Körpələrə məxsus dəyişək çeşidinə oğlan uşaqlarına aid boyunluğu tikili üst köynəkləri, oğlan uşaqlarına aid alt köynəkləri, qız uşaqlarına aid köynəklər, pantalonlar, trusılar, pijamalar, lifçiklər və döşlüklər daxil olur.

Təzə doğulmuş uşaqlara aid dəyişək çox zaman yumşaq pambıq parçalardan tikilir və bunlara, uşağı incitməsin deyə, minimal miqdarda tikiş salınır. Bu dəyişəyin çeşidinə ağ parçadan qabağı açıq raspanoşka, isti parçadan (flaneldən) qabağı açıq kofta, qabağı yarımaçıq köynəklər, soyuq və isti əskilər, mələfələr, ədyalaltılar, yay və qış (astarlı) mövsümi konvertlər və yay və qış çepçikləri daxil olur.

Yataq ağlarına yastıqüzü, döşəküzü, yastıq örtüyü, mələfələr, ədyalaltı, çarpayı pərdələri və sırıqlı yorğanlar daxil olur [32].

Yastıqüzü üst və alt üçün olur. Alt yastıqüzüləri bezdən, satindən və pambıq, yaxudk ətan polotnodan, üst yastıqüzü isə pambıqdan olan ağ parçalardan və kətan parçalardan tikilir. Üst yastıqüzü düyməli və bağlı ola bilər. Yastıqüzülərin ölçüsü 38x38 sm-dən başlanmış 80x80 sm-ə qədər olur. Döşəküzü tik, kreton və digər qalın parçalardan tikilir. Bunların ölçüsü 70x120-dən 140x200 sm-ə qədər olur.

Yataq örtüyü şifon, nansuk, batist, mayya, volta, kətan polotno və digər parçalardan tikilir. Bunların ölçüsü 70x70 sm-dən 105x105 sm-ə qədər olur.

Mələfələr pambıq və kətandan olan mələfəlik parçalardan müxtəlif ölçülərdə hazırlanır. Bunların ölçüsü 120x170 sm-dən 202x214 sm-ə qədər olur.

Ədyalaltılar dörd tipdə buraxılır. Bunlara konvert, örtülü ikiqat bir ucunda açıq düymə ilə bağlanan girişli, yanları ilgəkli və açılmış ilgəkli deyilir. Ədyalaltılar pambıq və kətan parçalardan olarq 123x173 sm-dən 210x275 sm-ə qədər ölçülərdə tikilir.

Çarpayı pərdəsi kətan polotnodan tikilir və bir ölçüdə (70x210 sm) buraxılır.

Sırıqlı yorğanlar ipəkdən və pambıqdan olur. İpək yorğanları üzü atlas, poplin, damasse adlı ipək parçalardan olur və astarına isə pambıq parça (şifon) qoyulur. Pambıq parçadan olan sırıqlı yorğanların isə həm üzü, həm də astarı satin, çit və s. pambıq parçalardan olur. Bütün sırıqlı yorğanlar ya maşında, yaxud da əldə sırınır. Pambıq parçadan olan sırıqlı yorğanların sırığı dörd qrupa bölünür. Hər qrupun təsviri preyskurantda dərc edilir. Uşaq yorğanları 118x118 sm və 120x140 sm ölçüdə, yeniyetmələrə məxsus yorğanlar 120x170 sm ölçüdə və yaşlılara məxsus yorğanlar isə 140x214 sm və 174x214 sm ölçüdə buraxılır.

Aşxana ağlarının çeşidinə süfrələr, salfetlər, masaüstü zolaqlar, komod örtükləri, üz dəsmalları, stəkanaltılar, podnos örtükləri və suxari örtükləri daxil olur [38].

Bütün bu məmulat kətan və yarımkətan polotnolardan tikilir və bunlara müxtəlif naxışlar (çəki naxışı, tikiş naxışı və s.) verilir. Bu naxışlar mürəkkəblik dərəcəsinə görə 60 qrupa bölünür və bu qruplara 1-dən 60-a qədər nömrə qoyulur. Süfrələr habelə məxmərdən, plyuşdan və s. ipək parçalardan istehsal edilir.

Süfrələr 71x71 sm-dən 180x275 sm-ə qədər ölçülərdə, salyetlər 28x28 sm-dən 60x60 sm-ə qədər ölçülərdə, zolaqlar 25x100 sm-dən 50x180 sm-ə qədər ölçülərdə, komod örtükləri 70x150 sm ölçüdə, üz dəsmalları 25x110 sm-dən 50x200 sm-ə qədər ölçülərdə, stəkanaltılar 20x20 sm ölçüdə, podnoqs örtükləri 30x50 sm-dən 40x46 sm-ə qədər ölçülərdə və suxari qabı örtüyü 30x30 sm ölçüdə buraxılır.

Camaşir çeşidinə habelə pərdə, ştor və pəncərə üçün alt və üst pərdələr daxil edilir. Bu məmulat kətan və yarımkətan polotnolardan tikilir və müxtəlif qaydalarda naxışlanır.

Baş geyimlərinin ümumi qruplaşdırılması. Baş geyimləri cins-yaş təyinatına, növ, fason, ölçü və ilk materialına görə qruplaşdırılır.

Cins-yaş təyinatına görə baş geyimləri kişi, qadın və uşaq baş geyimlərinə bölünür. Baş geyimlərinin əsas növləri papaq, furajka, kepka, şlyapa, beret və araxçından ibarətdir.

Baş geyimlərinin, xüsusən şlyapanın fasonları çox müxtəlif olmaqla, biçim formasından və bəzək xarakterindən asılıdır.

Baş geyimlərinin ölçüləri santimetr vasitəsilə içərisinin aşağı çevrəsindən ölçülür. Kişi və qadınlara məxsus baş geyimlərinin ölçüsü 53 №-dən 62 №-yə qədər, uşaq baş geyimlərinin ölçüsü isə 47 №-dən 56 №-yə qədər olur.

Materalına görə baş geyimləri xəzdən, süni xəzdən, fetrdən, yun və pambıq parçalardan, trikotajdan, həsirdən və s. materiallardan olur.

Kişilərə məxsus baş geyimlərinin çeşidinə furajkalar, kepkalar, şlyapalar və araxçınlar daxil olur.

Papaq qış mövsümünün baş geyimidir. Papaqlar bütöv xəzdən və xəz ilə parça,yaxud göndən tikilir. Süni xəzdən olan papaqlar tikili məmulat çeşidinə daxil edilir. Papaqların əsas növləri ukraina papağı, qulaqlı papaq, finn papağı və kuban papağıdır [1-7].

Ukraina papağı yuxarıdan dar formada və bütünlüklə süni xəzdən tikilir.

Qulaqlı papaq kolpak hissəsindən, günlük hissəsindən və qulaq və peysərlik hissəsindən ibarətdir. Bunların günlük və peysərlik hissələri qatlana bilir.

Papağın kolpak hissəsi yun, yarımyun və pambıq parçalardan tikilir və içinə pambıq qoyulur. Günlük və qulaq və peysərlik hissəsi süni xəzdən olur və bunlara parçadan astar qoyulur.

Finn papağı qulaqlı papaqdan öz peysərlik hissəsinin forması ilə fərqlənir və bunun qulaqlıq hissəsi olmur. Fin papağının günlük və peysərlik hissəsi papağın hər iki tərəfindən ilgək qarmaqla bəndlənir.

Kuban papağı süni xəzdən hazırlanır və təpəsinə parça qoyulur. Bunun təpəsi, bir qayda olaraq əlvan qaytanla yaraşığa salınır.

Furajkalar müxtəlif yun və pambıq parçalardan tikilir. Furajkanın əsas hissələri təpəsindən, alınlığından, çevrəsindən, günlüyündən və astarından ibarətdir. Çevrənin qabağında günlük hissəsinin üstündən ensiz körpülü qayış və çevrənin içəri tərəfindən isə bir zolaq gön əvəzedicisi tikilir.

Furajkalar müxtəlif fasonlarda ola bilər. Ən çox yayılan günlüyü öz parçasından və çevrəsi tikişli olan kapitan furajkalarıdır. Kaptan furajkalarının günlüyü enli və çevrəsinə, demək olar tam perpendikulyar tikilir.

Kepkalar quruluşca furajkalardan fərqlidir. Bunların ayrıca çevrəsi yoxdur. Burada kolpakın kənarı çevrə yeri verir. Kepkalar müxtəlif yun və pambıq parçalardan tikilir. Kepkaların əsas fasonları səkkiz xiştəkli, hamar və kökləmə fasonlarıdır.

Kişilərə məxsus şlyapalar təp əvə kölgəlik hissəsindən ibarətdir. Təpəsinin aşağısının ətrafında, adətən lentdən bant və ya qaytan bərkidilir və içərisinə isə göndən, yaxud əvəzedicidən alınlıq qoyulur. Çox şlyapalara həm də astar qoyulur.

Fetr şlyapalar yun, yaxud tiftik kolpakdan ibarət olur. Yun kolpaklar merinos və dönməcins qoyun yunlarından kecələşdirilmiş və döyülmüş qarışığından, daraqlı yun qırıntılarından, şlyapa istehsalı tullantılarından və s. xammallardan hazırlanır. Tiftikli kolpaklar isə çöl dovşanı, yaxud ev dovşanının keçələşdirilmiş və döyülmüş tiftiyindən hazırlanır. Melanj xarakterli yun

kolpaklara bundan başqa viskoz, yaxud misli ammonyak ipəyinin ştapel lifləri tətbiq olunur.

Şlyapaların fasonu kölgəliyinin enindən (qatlanmış, ütülənmiş, yaxud sırıqlanmış və baftalı) asılıdır.

Həsir şlyapalar xüsusi çəltik, buğda və s. nəbatat küləşindən hörülüb hazırlanır. Həsir şlyapalar cod və yumşaq olur.

Parçadan olan şlyapalardan ən çox yayılan təpəsi dörd xiştəkdən ibarət panama şlyapasıdır. Panama şlyapası ağ roqoşkadan, pike parçasından, taftadan və s. parçalardan hazırlanır.

Araxçınlar yumşaq girdə baş geyimindən ibarətdir. Araxçınların təpəsi bütöv, bir tikişli və ayrı-ayrı xiştəklərdən ibarət ola bilər. Araxçınlar yun parçalardan (kişmir, rekord və s.) və pambıq parçalardan (satin-dubl, yarımməxmər və s.) tikilir. Araxçınların çoxuna tikiş naxışı salınır.

Qadınlara məxsus baş geyimlərinin əsas növləri şlyapa, beret və papaqcıqdan ibarətdir.

Qadın şlyapası müxtəlif materiallardan və cürbəcür fasonlarda tikilir. Qadın şlyapalarından ən çox yayılan fetrdən, parçadan və həsirdən olan şlyapalardır.

Qadınlara məxsus fetr şlyapalar, kişilərə məxsus fetr şlyapalar kimi yun və tiftik kolpaklardan hazırlanır. Bunların fasonu təpəsinin formasından, kölgəliyinin mövcud olub-olmamasından və əlavə bəzəyinin xarakterindən asılıdır. Fetr şlyapaları yarmcod yundan, içərisinə spartr deyilən material, yaxud qeyri-materiallar qoyulmuş, ya da yapışqanlaşmış və yumşaq olur [8].

Parçadan olan qadn şlyapaları yun parçalardan, ipək parçalardan, pambıq parçalardan və kətan parçalardan tikilir. Nazik ipək parçalardan tikilən şlyapaların içərisinə spartr materialı, yaxud nişastalanmış tənzif qoyulur.

Qadınlara məxsus həsir şlyapalar kişilərə məxsus həsir şlyapa kimi çəltik, buğda və s. nəbatat küləşindən hazırlanır və müxtəlif fasonlar daşıyır.

Qadın bereti fetrdən və parçadan hazırlanır. Fetr beretlər bütöv, girdə, yaxud oval formada olur. Bunlar yun və tiftik kolpaklardan hazırlanır. Parçadan olan

beretlərə triko, şevyot, mahud, qabardin və s. yun parçalar və yarımməxmər, velvet-kord və velveton adlı pambıq parçalar tətbiq olunur, içərisinə isə pambıq parçadan, yaxud ipək parçadan astar qoyulur.

Qadınlara məxsus papaqcıqlar qış mövsümünə aid baş geyimi olaraq süni ipəkdən, pluşdan, məxmərdən və s. materiallardan hazırlanır və cürbəcür fasonlarda buraxılır.

Uşaqlara məxsus baş geyimlərinin çeşidi çox cəhətdən yaşlıların baş geyiminin çeşidinə müvafiqdir.

Məktəb yaşlı və məktəb yaşına qədər olan oğlan uşaqlarının baş geyimlərinə papaq, furajka, kepka, şlyapa, matroska, araxçın və jokeyka daxil olur.

Papaq fasonları qulaqlı papaqdan, finn papağından və kuban papağından, furajka formalı və kapitan furajkasından, kepka kişi kepkaları fasonlarından, şlyapa panama tipindən və araxçın fasonları kişi araxçını fasonlarından ibarətdir. Matroska uşaq papaqcığı olmaqla təpə, alınlıq və çevrə hissələrindən ibarətdir. Çevrəyə qara lent tikilir və bunun ucları matroskanın arxasından sallanır.

Lentin uclarına boyaq vasitəsilə lövbər şəkli və lentin orta hissəsində isə müxtəlif sözlər yazılır. Jokeyka orijinal növlü kepkadır. Jokeykanın təpəsi dörd, yaxud altı xiştəkdən ibarət olur. Bunun günlük hissəsinin içinə qardon və üzünə parça tikilir. Jokeykanın günlüyünün üstünə körpülü qayış tikilir.

Qız uşaqlarına məxsus baş geyimlərinin çeşidinə şlyapa, beret və papaqcıqlar daxil olur. Qız şlyapaları, qadın şlyapası kimi fetrdən, parçadan və həsirdən hazırlanır. Bunların fasonu qadın şlyapalarının fasonlarından az fərqlənir.

Körpələrə məxsus spesifik baş geyimlərindən kapor, körpə ləçəyfi və körpə panamasını göstərmək olar. Kapor plyuş, məxmər, ipək polotno, krepdeşin və digər parçalardan tikilir və bunlara cürbəcür bəzək vurulur. Körpələrə məxsus ləçəklər şifon və batist parçalardan, panamalar isə müxtəlif pambıq və kətan parçalardan tikilir [42].

# II FƏSİL. TƏDQİQAT HİSSƏSİ

## 2.1. Uşaq geyimlərinin keyfiyyət ekspertizası

Uşaq geyimləri keyfiyyətcə 1-ci və 2-ci sortlara bölünür. Məmulatın 1-ci və ya 2-ci sorta salınması müşahidə edilən toxuculuq və istehsal qüsurlarından asılıdır.

İstehsal qüsurları çox cürbəcürdür. Bunları ümumiyyətlfə məmulata aid olan və ayrı-ayrı detallara (boyunluğa, qollara və s.) aid olan qüsurlara bölmək olar.

Ümumiyyətlə, məmulata aid qüsurlar kökləmələrin qeyri-simmetrik yerləşməsindən, parçanın zolağının yaxa, yaxud latskan xəttinə müvafiq gəlməməsindən, xanəli güllərin bel tikişilə üz-üzə gəlməməsindən, tikiş sapının parçanın rəngindən fərqlənməsindən, tikişlərin əyri olmasından, tikişlərdə ilmələrnin üzə çıxmasından (sapın görünməsi), pambığın bir bərabər qalınlıqda sərilməsindən, ayrı-ayrı yerlərin pambıqsız qalmasından, azacıq ütü yanığından və s. ibarətdir.

Yaxaların qüsurları əyilməsindən, müxtəlif uzunluqda olmalarından, parçadakı güllərinin, yaxud zolaqlarının latskanın kənarı üzrə qeyri-simmetrik düşməsindən ibarətdir.

Boyunluğun qüsurları uclarının qeyri-bərabər enlikdə olmasından, kənarının əyilməsindən, üst boyunluğun, yaxud bortaltının dartılmış olmasından və nəticədə qırış və əyinti əmələ gəlməsindən və boğazlığın gen, yaxud dar olmasından ibarətdir.

Qolların qüsurları uzunluğunun və eninin qeyri-bərabər olmasından, aşağısının əyri olmasından və yerinə yanlış tikilməsindən ibarətdir.

Ciblərin əsas qüsurları yerinin əyri olmasından, cib ağzının qısaldılmasından, papaq, yaxud listoçkasından qeyri-düzgün forma daşımasından, cib qapaqlarında, yaxud listoçkada parçanın zolaq, yaxud xətlərinin ətəkdəki zolaqlar və xanələrlə tuş gəlməsindən ibarətdir.

İlgəklərin əsas qüsurları qeyri-düzgün yerləşməsindən, ilgəklərin əyri, müxtəlif ölçülərdə olmasından və ətrafının pis sırınmasından ibarətdir.

Şalvarlarda rast gələn əsas qüsurlar uzunluq və en cəhətcə hər iki tayının bir-birinə müvafiq gəlməməsindən, aşağısının, yaxud kəmərinin əyri olmasından, bant hissəsinin bir tərəfinin digərindən qısa, yaxud uzun olmasından, qulfikin qırışdırılmasından və yan tikişinin əyri düşməsindən ibarətdir.

Baş geyimlərinin qüsurları günlüyünün əyri tikilməsindən, kartonunun sınmasından, alınlığının çatlamasından, hissələrinin xovu müxtəlif tərəflərə doğru olmasından, astarının yerindən oynamasından və s. ibarətdir.

Tikili məmulat sortlaşdırılan zaman qüsurların növləri, qüsurların ölçüsü və yeri, yəni görünən və görünməyən yerlərdə yerləşməsi nəzərə alınır.

Bütün sort məmulat təsdiq edilmiş modellər üzrə hazırlanmalı, bəzəklər, furnitura və xəz hissələri məmulatın özü ilə müvafiqət təşkil edir və üst materialına uyğun olmalıdır. Məmulat maneken fiqurasına yaxşı oturmalı, bütün büzmələr, qabarıqlar və bəzək tikişləri simmetrik yerləşməlidir. Məmulat yaxşı təmizlənməli və diqqətlə ütülənməlidir.

3-cü sort üçün müəyyənləşdirilmiş normadan yuxarı olan qüsurlara, habelə məmulatın zahiri görünüşünü ciddi pozan və istifadə edilməsinə mane olan qüsurlara yol vreilmir. Belə qüsurların siyahısı tikili paltarın sortlaşdırılmasına dair texniki şərtlərdə dərc olunmuşdur. Məsələn, üst paltarında (palto, yarımpalto, kostyum) aşağıdakı qüsurlara yol verilmir:

- qol oyuğunda astarın seyrək tikilməsi;
- qolların qeyri-düzgün (qabağa, yaxud dala) tikilməsi və onların düzgün oturmaması;
- şalvarın kəmər yerində astarın qeyri-düzgün tikilməsi (üstdən görünməsi);
- astarın həddindən artın uzun olması;
- tökülən parçalarda tikişlərin sırınmaması (astarsız məmulatda);
- ilgəklərin yarığından astarın görünməsi;

- kəsmə ciblərdə aralıq astarının olmaması (aşağıya qədər astarı olan məmulatlarda);
- qolların ağzına və şalvarın kəmərinə aralıq materialın qoyulmaması;
- müəyyən məmulatda qıl, yaxud qıl əvəzedicisinin olmaması;
- boyunluğun bitişən yerində, ilmələrin dibində və cib kəsiyinin künclərində əl, yaxud maşın vasitəsilə vurulmuş bəndlərin olmaması;
- astarın böyür və dirsək tikişlərinə, boğazlığa və yaxud qol oyuğuna tikilməməsi.

Cüt kostyum məmulatı, habelə xəz boyunluğu və astarı olan məmulat sortlaşdırılanda hər hissənin (şalvar, jilet, pencək, yubka, jaket) qüsurları və habelə boyunluqla astarın qüsurları ayrı-ayrı meydana çıxarılır. Güzəşt yalnız qüsuru olan hissənin, xəz boyunluğunun, yaxud astarın dəyərindən hesablanır.

İkilik kostyumlarda pencəyin, yaxud jaketin dəyəri 60% və şalvarın, yaxud yubkanın dəyəri 40%, üçlük kostyumlarda isə pencəyin dəyəri 50, şalvarın dəyəri 35% və jiletin dəyəri 15% götürülür. Astarın qiyməti məmulatın dəyərinin 10%-nə bərabər sayılır.

## 2.2. Uşaq geyimlərinin markalanma və qablaşdırılması

Tikili məmulatın çoxusu karton, yaxud parçadan ibarət yarlıqla markalanır. Burada məmulata dair əsas məlumat göstərilir. Məsələn, tikili üst paltarına aid yarlıqlarda fabrikin mal nişanı, məmulatın adı, model nömrəsi, preyskurant nömrəsi, parçanın adı və artikulu, məmulatın ölçüsü, boyu (uzunluğu), sortu, 1-ci sortun qiyməti, sortunun aşağı olmasına görə güzəşti, güzəştlə qiyməti, bəzəyinə görə əlavəsi, pərakəndə qiyməti, texniki şərtlərin nömrəsi və buraxılış tarixi göstərilir.

Yarlığın arxasında məmulatın sortu və sortlaşdırma aparan şəxsin nömrəsi göstərilir. Burada habelə məmulatın bu və ya digər hissəsinin sortu aşağı olmasına görə güzəşt yazılır. Tikili üst paltarına və baş geyimlərinə karton yarlıq asılır. Camaşirə isə parçadan yarlıq tikilir.

Yarlıqdan başqa, tikili üst paltarına və camaşirə fabrik markası da yapışdırılır. Fabrikin markası ipək lentdən, yaxud ensiz parça zolağından ibarət olur. Burada müəssisənin adı göstərilir. Baş geyimlərində həmin istehsal markası alınlıq hissəsinə və astarına vurulan damğa ilə əvəz edilir.

Tikili məmulat ilk əvvəl karton qutulara və habelə kağızdan, yaxud sellofandan ibarət paketlərə qablaşdırılır. İpək donlar və bluzkalar, ipək dəyişək, kətan və pambıq parçadan olan dəyişək, fetr şlyapa və bahalı parçalardan olan şlyapalar karton qutulara qoyulur. Kiş8ilərə məxsus üst köynəkləri və qadın dəyişəyinin ayrı-ayrı növləri paketlərə qablanır. Palto, kostyum, şalvar və s. növ tikili məmulat qutuya və paketə qoyulmur.

Daşımaq üçün tikili məmulat içinə kağız sərilmiş taxta, yaxud faner yeşiklərə qablaşdırılır. Yeşiklər standart ölçüdə olmalı və məmulatın əzilmədən yığılmasını təmin etməlidir. Qutuya, paketə, yeşiyə qablaşdırmadan qabaq əzilməsin deyə bunlar səliqəli bükülür. Bükmə qaydaları standartlarda göstərilmişdir. Tikili məmulat xüsusi avtomaşınlarda, habelə konteynerlərdə daşınarkən qutulara, paketlərə və yeşiklərə qablanmır.

## 2.3. Uşaq geyimlərinin saxlanması və onlara qulluq edilməsi

Uşaq geyimlərinin saxlanmasına dair ümumi şərtlər parça mallarının saxlanmasına dair şərtlərin eynidir. Tikili mallar saxlanan anbar binası təmiz, quru, havası yaxşı dəyişilən, nisbi rütubəti normal və temperaturu sbit olmalıdır. Saxlanan zaman məmulat divardan və döşəmədən 20 sm, elektrik lampalarından 50 sm və isidici cihazlardan 1 m aralı yığılmalı və tozdan, kirdən, günəş şüalarından, gəmiricilərdən və güvədən mühafizə edilməlidir. Palto, kostyum və donlar, yaxşı olar ki, çiyinliklərdən asılsın.

Geyilən zaman tikili məmulat yuyulur, ütülənir, silinir və üzərindən, lazım gələrsə, ləkələri rədd edilir və s.

Paltarı yuyan və ütüləyən zaman hansı parçadan tikildiyi nəzərdə saxlanmalıdır. Pambıq və kətan parçalardan olan məmulatı yuyan və ütüləyən zaman elə bir xüsusi şərtlərə riayət olunması lazım gəlmir.

Natural ipəkdən olan məmulat yaxşı olar ki, neytral sabun, məsələn, uşaq sabunu köpüyündə, yaxud yuyucu sintetik maddələrlə yuyulsun.

Suyun temperaturu burada $40^o$-yə yaxın olmalıdır. Yuyulmuş məmulat qabaqca isti suda və sonra soyuq suda yaxalanmalı və həmin soyuq suya sirkə qatılması (hər bir litr suya bir xörək qaşığı) məsləhət görülür. Yaxaladıqdan sonra məmulat sıxılır, bir neçə vxt quru dəsmala, yaxud mələfəyə bükülür və sonra çiyinliklərdə qurudulur. Məmulat həmişə astar tərəfdən ütülənməli, azacıq nəm olmalı və ütünün temperaturu 150 dərəcəyə yaxın səviyyədə saxlanmalıdır. Ağır parçalardan (krep-satin və s.) olan məmulatı yumaq məsləhət görülmür. Bunlar yaxşı olar ki, kimyəvi təmizləməyə verilsin.

Süni ipəkdən olan məmulat, çox ehtimal yuyulmalı və yaxşı olar ki, 72%-lik nüvə sabunu, yaxud uşaq sabunu məhlulunda, yaxud yuyucu sintetik maddələrdə yuyulsun. Burada sabun məhluluna naşatır spirti (bir vedrə məhlula bir xörək qaşığı) qatılması məsləhət görülür. Bu məmulatı yuyan zaman sıxmaq və sürtmək olmaz, çünki ipək liflər çox tez dağıla bilər. Məmulatı qurudan zaman sərilmiş

halda mələfəyə büküb qurutmaq məsləhət görülür. Bu məmulat astar tərəfindən ütülənməlidir. Ütünün temperaturu burada viskoz ipəyi üçün ən çox $130^o$ və asetat ipəyi üçün isə ən çox $100^o$ olmalıdır.

Nazik yun parçalardan olan məmulat $40\text{-}45^o$ temperaturda neytral sabun köpüyündə, yaxud sintetik yuyucu maddələrlə yuyulmalıdır. Suyu yumşaltmaq üçün ona naşatır spirti (bir vedrə suya 2-3 qaşıq) qatmaq məsləhət görülür. Yun parça keçələnməsin və yığışmasın deyə yuyan zaman çox sürtülməməlidir. Yun parçadan olan məmulatı ütüləyəndə mütləq üstünə pambıq parçadan ibarət cındır sərilməlidir. Kostyumluq və paltoluq parçalardan ibarət olan məmulatı yumaq məsləhət görülmür. Bunlar kimyəvi təmizləməyə verilməlidir.

Ev şəraitində paltarın silinməsi onun tozdan və kirdən azad edilməsi məqsədini güdür. Bu məqsədlə məmulat cod paltar fırçası ilə müntəzəm surətdə silinməlidir. Paltarın üstünə palçıq düşəndə onun qurumasını gözləməli və sonra fırça vasitəsilə silməlidir.

Paltarın ləkəsi müxtəlif üsullarla rədd edilir. Burada ləkənin xarakteri və məmulatın parçasının növü nəzərə alınır.

Təzə ləkə hamıdan asan rədd edilir. Köhnəlmiş ləkələr və xüsusən çernil ləkələri, meyvədən, giləmeyvədən və qırmızı şərabdan dəyən ləkələr nisbətən çətin rədd edilir.

Ləkələrin rədd edilməsi üsullarından ən sadəsi onların bir neçə dəfə fırça, yaxud isti sabun məhlulunda isladılmış cında ilə silinməsindən və sonra qurudulub ütülənməsindən ibarətdir. Beləliklə, otdan pivədən, meyvədən, balıqdan, süddən, konservdən və sousdan düşən təzə ləkələr rədd edilə bilər.

Yağ ləkələrinin, habelə yağlı boyaqdan, mumdan, stearindən və s. maddələrdən düşən ləkələrin rədd edilməsi üçün bu və ya digər əridicilərdən istifadə edilməlidir. Belə ləkələrin rədd edilməsi üçün aşağıdakı texniki üsullarla riayət edilməlidir:

- məmulatın tozcunun diqqətlə təmizlənməsi;
- görünməyən bir yerdə əridicinin parça rənginə təsirinin yoxlanması;

- parçanın astar tərəfindən ləkənin altına pambıqdan, yaxud tənzifdən tampon qoyulması və islandıqca dəyişdirilməsi;
- ləkə təmizlənən zaman yayılmasın deyə, ətrafının qabaqca isladılması və sonra əridicidə isladılmış cında ilə ləkənin özünün silinməsi;
- təmizləndikdən sonra həmin yerlərə filtr kağızı, yaxud suçəkən ağ kağız qoyub, isti ütü vasitəsilə ütülənməsi. Əridici yerində burada xalis aviasiya benzini (yağlı ləkə üçün), təmizlənmiş skipidar, yəni balzam (yağlı boyaqlardan düşən ləkə üçün), durulaşdırılmış naşatır spirti (qəhvə və kakao ləkəsi üçün), qliserinlə naşatır spirtinin qatışığı (çay, balıq, süd və sous ləkəsi üçün) və s. maddələr tətbiq olunur.

Avtomat ruçka çernilindən düşən ləkə sabun suyu, yaxud denaturat spirtilə rədd edilir.

# III FƏSİL.

## 3.1. Uşaq geyimlərinin istehlak xassələrini formalaşdıran amillərin ekspertizası

Uşaq trikotaj geyimləri, yəni hissələri trikotajdan biçilib, sonra xüssusi maşınlarda tikilən məmulatlardan ibarətdir.

Trikotaj porlotnodan uşaq geyimləri istehsalında bir sıra materiallar, məsələn, pambıq və ipək parça, elastik lent, sap, düymə, tül, krujeva və s. tətbiq edilir.

Trikotaj geyimlərinin polotnosu malyez, MT, interlok, fırlanğıc və fanq maşınlarında istehsal edilir.

Trikotajın növünə (toxunuşun xarakterinə) görə trikotaj polotno birüzlü hamar, örtüklü, interlok, preslənmiş ajur (press-naxış), tiftikli, atlaz və s. ola bilər.

İlk materialına görə trikotaj polotno pambıqdan, ipəkdən, yrımipəkdən və yundan olur.

Maşınlarda hörülən trikotaj polotno, adətən bəzək əməliyyatından keçir və nəticədə həm fiziki-mexaniki xassələri, həm də zahiri görünüşü yaxşılaşır.

Bəzək əməliyyatının xarakteri polotnonun nəyə sərf edilməsindən və onun ipliyindən (xam iplik, boyanmış iplik, melanj iplik) asılıdır. Xam iplikdən olan polotno, adətən ağardılır, yaxud boyanır və bəzən isə həm ağardılır, həm də boyanır, ancaq boyanmış, yaxud melanj iplikdən olan polotno bu əməliyyatdan keçirilmir. İsti camaşir üçün polotnoda tiftik əmələ gətirilir, nazik camaşir üçün olan polotnoda isə bu əməliyyat aparılmır və s.

Trikotaj polotnosu üzərində aparılan əsas əməliyyatdan yamaq əməliyyatını, polotnonun qaynadılması, ağardılması, boyanması, tiftikləndirilməsi və ütülənməsi əməliyyatını göstərmək olar.

Yamaq əməlyyatı hörülmə zamanı əmələ gələn nöqsanların (sapların qırılması, ilmələrin qaçması və s.) xüsusi yarmaq, yaxud iynə vasitəsilə diqqətlə bərpa edilməsi deməkdir. Ayrı-ayrı hallarda, məsələn, fırlanğıc polotnosundan olan

üst məmulatında yamaq əməliyyatı əvəzinə nöqsanlı yerlər iynə vasitəsilə tikilir. Yamaq əməliyyatı hər növ trikotaj polotnolara tətbiq edilir.

Polotnonun qaynadılması onun qələvi məhlullarında bişirilməsindən ibarətdir. Burada liflərin yağ, mum və s. maddələri və habelə emal vaxtı əmələ gəlmiş çirk çıxarılır. Bu əməliyyat gələcəkdə ağardılacaq, yaxud boyanacaq pambıqdan hörülən polotno üçün tətbiq olunur.

Polotnonun ağardılması onun xüsusi ağardıcı əhəng məhlulundan, yaxud digər ağardıcı maddələrdən keçirilməsi deməkdir. Bunun nəticəsində liflərdəki boya maddələri çıxardılır. Ağartma əməlmiyyatı açıq rəngə boyanıb, camaşir məmulatı tikiləcək polotno üçün tətbiq edilir.

Trikotaj polotnosu süni boya məhlullarında boyanır. Yuxarıda ipliyin boyanmasından bəhs edilərkən qeyd olundu ki, bu boyaların tərkibi və xassələri müxtəlif oldduğu üçün boyanmış polotnonun da müxtəlif zahiri təsirlərə qarşı boya cəhətdən sabitliyi müxtəlifdir. Camaşir üçün tətbiq olunan polotnoların boyası birinci növbədə tərə və yuyulmağa qarşı, idman camaşiri üçün tətbiq olunan polotnoların boyası isə bunlardan əlavə həm də işığa və atmosfer təzyiqinə qarşı sabit olmalıdır.

Trikotaj polotnosunun tiftikləndirilməsi polotno hörülən zaman iynələrdən yoğun sap keçirilib, sonra didilməsindən ibarətdir. Burada polotnonun üzərində sıx tiftik əmələ gətiilir ki, bu da trikotajın istiliyi qorumaq xassəsini yüksəldir. Tiftik əməliyyatı polotnonun astar tərəfində və bəzən isə hər iki tərəfində aparılır. Bu əməliyyat sıx sıralarla iynə düzülmüş valları olan xüsusi maşınlarda aparılır.

Trikotaj polotnosunun ütü əməliyyatı polotnonun kalandr adlanan xüsusi maşınlardan keçirilməsindən ibarətdir. Bu maşının ipəridən buxarla qızan hamar valları olur. Trikotaj polotno həmin valların arasından keçiriləndə həm sığallanır, həm də ütülənir.

Trikotaj camaşiri istehsalında adətən satin, bez, mitqal və şifon tətbiq olunur. Satin-atlaz toxunuşlu parçadan ibarətdir. Bu toxunuşda olan parçanın üz tərəfində arğac sapları çoxluq təşkil edir. Bez, mitqal və şifon sadə toxunuşlu parçadır. Bu

parçalardan bez hamısından qalın, şifon isə hamısından nazikdir. Trikotaj camaşiri istehsalında parça, tumanın kəmərinə, fufaykanın döşünə və s. məmulata sərf edilir. Burada nadir hallarda ipək, yaxud viskoz qarışıq yarımipək parça (polotno, satin) tətbiq olunur. Bunlar əksəriyyətlə ipək, yaxud yarımipək trikotaj polotnodan tikilən camaşir məmulatına sərf edilir.

Trikotaj camaşirin istehsalı modelləşdirmə və konstruksiya əməliyyatından, polotnonun və digər materialların detallar üçün biçilməsindən, həmin detalların komplektləşdirilməsindən və bir-birinə tikilməsindən və nəhayət, bəzək əməliyyatından ibarətdir.

Camaşirin modelləşdirilməsi bu və ya digər növ məmulatın modelinin qabaqca şəklinin və sonra isə nümunəsinin yaradılmasından ibarətdir. Bu modellər həm trikotaj fabriklərinin özlərində, həm də xüsusi təşkilatlarda, məsələn, trikotaj sənayesinin elmi-tədqiqat institutunda hazırlanır.

Həm yeni modelə kütləvi istehsalla tətbiq edilməzdən əvvəl ticarət təşkilatları nümayəndələrinin iştirakı ilə müvafiq nazirliyin nəzdində olan bədii sovet tərəfindən baxılır və təsdiq edilir.

Təsdiq edilmiş modelə müəyyən nömrə verilir. Məmulatın fason nömrəsi həmişə hər məmulata yapışdırılmış kağız yarlıqda göstərilir.

Konstruksiya əməliyyatı məmulatın ayrı-ayrı detalları üçün lekal hazırlanmasından, yəni kartondan ülgülər kəsilməsindən ibarətdir. Bu lekallar sonra trikotaj polotnosunun biçildiyi zaman tətbiq edilir.

Trikotaj polotnosu və trikotaj camaşiri üçün tətbiq olunan parçaların biçim əməliyyatı aşağıdakı qaydada aparılır. Qabaqca xüsusi masaların üstünə bir neçə sıra keyfiyyəti diqqətlə yox-lanmış polotno, yaxud parça sərilir və bunların üstünə lekal qoyulub tabaşir vasitəsilə cızıqlar çəkilir. Sonra həmin cızıqların tuşundan polotno, yaxud parça hərəkətli elektrik bıçağı, yaxud lentalı elektrik mişarı vasitəsilə kəsilir.

İpək və yun trikotaj polotno, adətən təkqat qayçı vasitəsilə əldə biçilir. Pambıq polotnosunda çox qüsur olan hallarda (bu qüsurlar hazır məmulata keçməsin deyə) əldə biçilir.

Camaşir istehsalında komplektləşdirmə əməliyyatı məmulatın tikilməsi üçün lazım olan bütün detalların və əlavə materialların seçilib dəst halına salınmasından ibarətdir.

Trikotaj polotnosundan olan detallar xüsusi maşınlarda (overlok, tambur, elastik-tikiş) bir-birin tikilir, çünki adi tipli maşınlar trikotaj məmulatı üçün yaxşı uzanan tikiş salmır.

Overlok maşınları vasitəsilə məmulatın çiyin və böyür, qol və digər hissələri tikilir, habelə aşağısı qatlanıb köbələnir. Overlok maşınlarında nəinki hissələr bir-birinə tikilir, bu maşınlarda habelə məmulatın kənarları ilməklənir və sırıq salınır. Tambur maşınları nisbətən az elastik tikiş salır. Bu tikiş bir tərəfdən zəncir, digər tərəfdən isə adi ilgək forması daşıyır. Bunlar köbə, cib və digər detallar tikilən zaman tətbiq olunur.

Hissələrin sırıqsız olaraq bir-birinə tikilməsi lazım olan hallardha, məsələn, maykalarda yaxanın və qol yerlərinin, habelə fufaykaların yaxasının qatlanıb tikildiyi zaman elastiki-tikiş maşınlarından istifadə edilir ki, bunlar da yastı elastik tikiş əmələ gətirir. Tumana parçadan kəmər və fufaykalara köbə tikən zaman adi qeyri-elastik tikiş salan tikiş maşınlarından istifadə edilir.

Məmulatın tikiş əməliyyatı ilgək açılıb ətrafının hömrələnməsi və düymə tikilməsi ilə bitir. Bu əməliyyat ya xüsusi maşınlarda, yaxud da əllə aparılır.

Trikotaj camaşirinin istehsalında son əməliyyat yamaq və ütülənmə əməliyyatıdır. Bundan sonra məmulat sortlara ayrılır, markalanır və qablaşdırılır. Yüksək keyfiyyətli camaşir tikərkən çox zaman əlavə bəzək tətbiq edilir. Həmin bəzək əməliyyatı maşın, yaxud əl vasitəsilə yaradılan çəki naxışından, habelə feston adlanan fiqurlu tikişlərdən, diş-diş tikişlərdən, balıqqulağına bənzər və s. bəzəkli tikişlərdən ibarət olur.

Məişət uşaq trikotaj dəyişəyi bir neçə əlamətə görə, o cümlədən cins-yaş təyinatına, növlərinə, məmulatın tip və fasonlarına, trikotaj polotnosunun növünə, ilk liflərineə və məmulatın ölçülərinə görə qruplaşdırılır.

Məişət camaşiri cins-yaş təyinatı etibarı ilə kişi, qadın və uşaq camaşirinə bölünür. Bu camaşirin əsas növləri kişi üst köynəklərindən, fufayka və tumanlardan, habelə qadın köynək, kombinasiya və pantolonlarından ibarətdir.

Məmulatın tip və fasonları müxtəlifdir. Bunlar ayrı-ayrı detalların biçimi, düymələnməsinin xarakteri və digər xüsusiyyətləri ilə müəyyənləşdirilir.

Polotnosunun növünə görə trikotaj məmulatı birüzlü hamar polotnodan (malyez), örtüklü, press-ajur (press-naxış), interlok, tiftikli, fırlanğıc və s. növlü polotnolardan fərqlənir.

İlk lifləri etibarı ilə trikotaj camaşiri pambıqdan, ipəkdən (viskoz və natural ipək), yarımipəkdən və yundan ola bilər.

Trikotaj camaşir ölçüləri santimetr hesabilə istehlakçının döş səviyyəsində bədən çevrəsinin yarısını xarakterizə edən şərti nömrələrlə işarələnir. Məsələn, 48 nömrəli trikotaj camaşir döş səvmiyyəsində bədəninin çevrəsi 96 sm olan istehlakçılar üçündür.

Kişilər üçün məişət camaşirinə üst köynəkləri, fufayka, tuman və tor daxil olur.

Kişilər üçün üst köynəkləri bədən, boyunluq və qollardan ibarətdir. Köynəyin bədəni bütöv, yaxud böyürlərdən tikişli olur. Bədən hissəsinin aşağısı qatlanıb yastı, yaxud overlok tikişi ilə bərkidilir.

Köynəyin yuxarı hissəsində (çiyinlərdə) bədənin qabağı və dalı çiyin tikişi ilə birləşdirilir və həmin tikişin üzərinə, adətən 3-5 sm enində çiyin köbəsi qoyulur. Bu köbələrin əvəzinə köynəyin bədən hissəsində ikiqat polotnodan çin bəzəyip də verilə bilər. Arxa tərəfdən çin bəzək düz və yaxud fiqurlu şəkildə olur. Qabaq tərəfdən köynəyin bədəni kəsilib ilgəklər açılır və düymələr düzülür, yaxud «molniya» deyilən çarpaz (yarımçıq kəsilən yaxada) tikilir.

Köynəyin boyunluğu ya birdəfəlik bədənin yaxa kəsiyinə tikilir, yaxud da düymə vasitəsilə bərkidilir. Boyunluğu düymə vasitəsilə bərkidilən köynəklərin yaxa kəsiyinə mütləq əlavə zolaq tikilir ki, bunun da qabaq uclarında zaponka keçirmək üçün ilgək, arxasında isə boyunluğun bərkidilməsi üçün düymə yeri açılır. Köynəyin boyunluq və əlavə zolağı ikiqat trikotaj polotnodan tikilir və arasına pambıq parça qoyulur.

Köynəyin qolları uzun və qısa olur. Qısa qolun aşağısı içəri qatlanıb tikilir. Uzun qolun aşağısında birqat, yaxud ikiqat (qatlanan) manjet tikilir. Manjet ikiqat trikotaj polotnodan ibarət olur və arasına yuyulmuş pambıq parça qoyulur. Manjetin bir, yaxud iki düyməsi olur.

Köynəyə bir, yaxud iki üst cibi qoyula bilər.

Standhart üzrə köynəklər aşağıdakı baş tipdə hazırlanır.

- I tip qısa qollu, boyunluğu üstünə tikilmiş əlavə zolaqlı və zolaqsız (teniska);
- II tip uzun qollu və boyunluğu üstünə tikilmiş əlavə zolaqlı;
- III tip uzun qollu, çin bəzəkli və boyunluğu üstünə tikilmiş əlavə zolaqlı;
- IV tip uzun qollu və əlavə boyunluqlu;
- V tip uzun qollu, çin bəzəkli və əlavə boyunluqlu.

I tip köynək yenidən aşağıdakı dörd fasona bölünür: A fasonu – bədən hissəsi qısa kəsilmiş, yaxası köbəli; B faonu – bədən hissəsi uzun kəsilmiş, aşağısı qatlanmış; V fasonu – bədəni aşağıya qədər kəsilmiş; Q fasonu – yaxası «molniya» çarpazlı; bütün yerdə qalan tipli köynəklər A, B və V fasonlarında buraxılır.

Kişilər üçün üst köynəkləri birüzlü hamar, press-ajur (press-bəzək), interlok və fırlanğıc polotnolardan hazırlanır. Davamlılığına və zahiri görünüşünə görə ən yaxşı köynəklər fırlanğıc və interlok polotnolarından hazırlanır.

Köynək üçün tətbiq edilən polotno pambıqdan, viskoz ipəyindən, yundan və qarışıq liflərdən (pambıqla süni ipək) istehsal oluna bilər.

Fufayka kişi üçün alt trikotaj köynəyidir, tumanla birlikdə alt camaşiri komplektini təşkil edir. Fufayka bədən və qollardan ibarətdir.

Fufaykanın bədənpi bütöv və tikişli (yanlardan tikişli) olur. Fufaykanın aşağısı qatlanıb overlok, tambur, yaxud yastı elastik tikişlə tikilir. Fufaykanın bədəninin çiyinləri düz, yaxud çəp tikişli, yaxud bütöv olur. Fufaykaenın yaxasında qabaqdan yarım dairəvi, arxadan isə düz, yaxud oval şəkildə yarıq açılır. Qabaqdan açılmış yarımdairəvi yarıq fufaykanın dalına tikilərək ikiqat boyunluq yarada bilir.

Fufaykanın yaxa kəsiyinin kənarı içəri qatlanıb tikilir, yaxud sırınır. Burada birqat və ikiqat trikotaj bafta, trikotaj polotnodan ikiqat zolaq və parçadan bafta tətbiq olunur.

Fufaykanın qolları uzun, yaxud qısa ola bilər. Uzun qollar bütöv və xiştəkli hörülür və aşağısında dairəvi, yaxud tikişli lastik (bilək sarğısı) olur. Qısa qollar bütöv hörülür və aşağısı lastikli, yaxud qatlanıb tikilmiş olur.

Fufayka iki tipdə hörülür: yaxası plankalı (düyməli) və yaxası plankasız, dairəvi (düyməsiz). Hər iki tip fufaykaların yaxası müxtəlif tərtibli olur.

Fufaykalar birüzlü hamar, tiftikli, örtülü (platir), press-ajur (press-naxış), interlok və fırlanğıc trikotaj polotnolardan hazırlanır. İlk xammalına görə fufaykalar pambıqdan, viskoz ipəyindən, yundan və mürəkkəb tərkibli (pambıq ipəyi ilə viskoz ipəyinin qarışığından) olur.

Tuman uzunluğuna və eninə görə bir cüt bərabər və aşağıya doğru getdikcə daralan qıçlıq hissələrdən ibarətdir. Tumanın aşağısı, yəni qıçları iç tikiş ilə bərkidilir. Tumanın orta hissəsinə kvadrat, yaxud paxlava formasında hissə tikilir. Tumanın qabaq tərəfindəki kəsiyə parçadan planka qoyulur. Yuxarı tərəfdə, tumanın astarında, yaxud üzündə pambıq parçadan müxtəlif formada kəmər tikilir.

Standart üzrə tuman iki tipdə buraxılır: kəməri parçadan və kəməri rezin baftadan. Hər iki tipli tuman uzun, yarımuzun və qısa formalarda buraxılır. Uzun tumanın aşağısına tikilmiş lastik, yaxud düymələnən ikiqat manjet qoyulur. Birüzlü hamar və tiftikli polotnodan hazırlanan tumanın arxasına kəmər yerindən bağ salınır. Yarımuzun tumanların aşağısına lastik tikilir, qısa tumanların aşağısı isə 1,5-2,0 sm içəri qatlanır. Tuman da fufayka kimi eyni növ trikotaj polotnodan hazırlanır.

Qadın camaşirinə köynək, kombinasiya, pantalon və qarnitur daxil olur.

Qadın köynəkləri təyinatına görə gündüz və gecə köynəklərinə bölünür. Gündüz köynəkləri bədən hissəsindən və aşırmalardan ibarətdir. Bəzi hallarda aşırmalar biçilmiş çiyinliklər ilə əvəz edilir. Standart üzrə qadın köynəkləri aşağıdakı iki tipdə buraxılır:

- I tip – beli dar və aşağısı dar, yaxud yuxarıdan aşağıya doğru getdikcə gen;
- II tip – düz, yaxud belinə qədər dar.

Gündüz köynəkləri birüzlü, hamar, örtüklü press-naxış, interlok və fırlanğıc polotnolarından hazırlanır. Liylərinin xarakterinə görə köynəklər pambıqdan, viskoz ipəyindən və yarımipəkdən olur.

Gecə köynəkləri bədən və qollardan ibarətdir. Gecə köynəyinin bədəni beldən dar və aşağıdan isə getdikcə gen olur. Bunların dalı bütöv, yaxud tikişli, qabaq tərəfi isə ya bütöv, ya da müxtəlif formada tikilmiş olur.

Gecə köynəyinin qabaq tərəfinə çiyindən başlamış büzmələr, yaxud qırışlar verilə bilər. Köynəyin qabağı boğazlıqdan aşağı kəsik olur və düymə, qaytan, yaxud lent vasitəsilə bağlanır. Gecə köynəyinin qolları qısa, yaxud uzun, aşağıya getdikcə gen, yaxud dar və manjetli ola bilər. Gecə köynəklərinə bəzən yaxlıq da qoyulur. Köynəklər kəmərli və kəmərsiz bdurxılır. Qolların, yaxalığın və döşlüyün yaraşıqlı olması üçün müxtəlif bəzəklər tətbiq edilir.

Qadın kombinasiyaları da gündüz köynəkləri kimi, bədən hissəsindən və iki aşırmadan ibarət olur. Kombinasiyaların bədəni köynəklərin bədənindən 9-17 sm uzun və aşağısı isə yuxarısından 24-25 sm gen olur. Kombinasiyanın qabaq hissəsi bütöv, yaxud bir neçə tikədən ibarət, naxışlı, naxışsız, döşü kəsik və müxtəlif formada çin-çin, beli büzməli və büzməsiz, arxa hissəsi isə bütöv, yaxud bir neçə tikədən ibarət, naxışlı, naxışsız, beli büzməli və büzməsiz olur.

Kombinasiyaların yanlarına müxtəlif enlikdə və uzunluqda calaq, yaxud xiştək qoyula bilər. Kombinasiyaların aşırmaları müxtəlif uzunluqda yarımipək, yaxud ipək baftadan və lentdən, habelə trikotaj polotnosundan olur və bunlara

çalkeçir qoyulur. Kombinasiyaların yuxarısına çəki naxış, aplikasiya və s. bəzək salına bilər. Kombinasiyanın aşağısı böyrünə nisbətən 3 sm uzun olur. Kombinasiyalar aşağıdan iki tipdə istehsal edilir:

- I tip yanları calaqsız, yanları koketkasından tutmuş aşağıya qədər calaqlı, yanı xiştəkli;
- II tip məmulatın bütöv uzunu boyu yanı calaqlı.

Kombinasiyanın hər tipii müxtəlif fasonlarda ola bilər. Kombinasiyalar viskoz ipəyindən olduqda – birüzlü hamar, press-naxışlı, interlok və fırlanğıc polotnolarından, natural ipəkdən olduqda isə fırlanğıc polotnosundan hazırlanır. İnterlok və fırlanğıc polotnolarından hazırlanan kombinasiyaların keyfiyyəti, başqa növ polotnolardan hazırlananlardan yüksəkdir.

Qadın pantalonu üç tipdə hazırlanır:

- I tip uzun, aşağısı manjetli, yaxud qatlanıb tikilmiş və rezin baytalı;
- II tip qısa və gen, aşağısı qatlanıb tikilmiş, kant qoyulmuş və yaxud trikotaj polotnodan baytalı;
- III tip çox qısa (trusı), aşağısı qatlanmış, yaxud baytalı.

Pantalonun yuxarısının qırağı bəzən içəri qatlanıb tikilir və içəridən elastik bafta keçirilir, az hallarda isə təkcə qabaq hissəsi qatlanıb tikilir və yaxud da altına parçadan kəmər tikilir. Belə olduqda yalnız qabaq tərəfə elastik bafta salınır. Tiftikli polotnodan olan pantalonun qabaq və arxa tərəfinə ikiqat kəmər tikilir və yanlardan düyməmələmək üçün yarıq açılır.

Pantalonlar birüzlü hamar (malyez), interlok, fırlanğıc və tiftikli polotnolardan istehsal edilir. Pantalon üçün tətbiq olunan polotno pambıqdan, viskoz ipəyindən, yarımipəkdən, habelə yundan və natural ipəkdən hörülür.

Qarnitur dəst məmulatdan ibarətdir. Bunlar köynəkdən və pantalondan, pantalon və kombinasiyadan və habelə pantalon, köynək və kombinasiyadan ibarət olur. Qaniturun tərkibinə daxil olan məmulata, adətən əlavə naxış (çəki naxışı, bəzək tikişi və s.) salınır.

Uşaq camaşirinin çeşidinə kişi və qadın camaşirinə aid məmulat və həm də qumluq, imək geyimi, yaxası düyməsiz geyim (raspoşonka) və bələk əskiləri daxil olur.

Oğlan uşaqları üçün üst köynəkləri iki tipdə buraxılır:

- I tip – qısa qollu və boyunluğu üstünə tikilmiş;
- II tip – uzun qollu və boyunluğu üstünə tikilmiş.

Bu köynəklər kişi köynəklərinin fasonunda olur. Uşaq köynəklərinə birüzlü hamar (malyez) interlok və fırlanğıc polotnoları tətbiq edilir.

Uşaq fufayka, tuman və torları kişi fufayka, tuman və torları tipində buraxılır. Tiftikli polotnodan olan uşaq fufaykaları 26, 28, 30, 32, 34, 36, 39 və 42 nömrəli hamar polotnodan olan fufaykalar 30 nömrəli və daha iri nömrədə olan torlar isə 34 nömrəli və daha yuxarı nömrədə buraxılır.

Uşaq pantalonları qadın pantalonları tipində olub 26, 28, 30, 32, 34, 36, 39 və 42 nömrəli hazırlanır.

Uşaq gündüz köynəkləri 26-dan 42 nömrəyə qədər çiyinlikli, 30-dan 42 nömrəyə qədər aşırmalı və gecə köynəkləri isə 28-dən 42 nömrəyə qədər ölçülərdə buraxılır.

Uşaq kombinasiyaları 34, 36, 39 və 42 nömrəli olur.

Qumluq mürəkkəb quruluşlu məmulat olmaqla qısa ayaqlı tumandan və daldan tumana düymələnən iki aşırmalı önlükdən ibarətdir. Qumluğun önlüyünə xırda cib tikilir. Qumluq qum içində oynamaq üçün uşaq geyimi sayılır. Bunlar bir rəngli, yaxud zolaqlı pambıq parçadan tikilir.

İmək geyimi tuman və ona bitişik corabdan ibarət mürəkkəb quruluşlu məmulatdır.

Uşaqlar üçün yaxası düyməsiz geyimlər (raspoşonka) qısa qollu, yaxası aşağıdan yuxarıya qədər açıq düyməsiz məmulatdan ibarətdir. Bu məmulat hamar, yaxud tiftikli pambıq polotnodan hazırlanır.

Bələk əskilərpi ağardılmış hamar, yaxud tiftikli pambıq polotnodan hazrlanır və kənarları qatlanıb overlok maşınından tikilir. Bunlar 90x90 sm ölçüdə buraxılır.

Hər ölçüdə olan uşaq camaşiri müəyyən yaşdakı uşaqlar üçündür. Məsələn, 26 nömrəli camaşir 1 yaşında, 28 nömrəli – 1-dən 2 yaşına qədər, 30 nömrəli – 3-dən 5 yaşına qədər, 32 nömrəli – 5-dən 6 yaşına qədər, 34 nömrəli – 6-dan 8 yaşına qədər, 36 nömrəli – 9-dan 11 yaşına qədər, 39 nömrəli – 12-dən 13 yaşına qədər və 42 nömrəli isə 13 yaşlı uşaqlara aiddir. Təxmini hesabla 14 yaşına qədər olan uşağa camaşir seçən zaman onun yaşına 26 əlavə edilməlidir.

İdman camaşiri də məişət camaşiri kimi bir sıra əlamətlərə (təyinatına, məmulatın növünə, tiplərinə və fasonlarına, ölçülərinə, polotnosunun növünə və ilk liflərinə) görə bölünür.

Təyinatına görə idman camaşiri 2 qrupa, yəni yaşlılar və uşaqlar üçün bölünür.

Növünə görə idman camaşiri maykadan, futbolkadan, qısa tumandan, dəniz kostyumundan, telnyajkadan və güləş geyimindən ibarətdir.

İdman camaşirinin tipii və faonu onun biçiminin xarakterilə müəyyənləşdirilir. İdman camaşirinin ölçüləri məişət camaşirinin ölçüləri kimi, yəni döşünün səviyyəsində bədən çevrəsinin yarısına bərabər olur.

İdman camaşiri üçün tətbiq olunan polotnoların növləri çox müxtəlifdir. Bunlar birüzlü hamar (malyez), interlok, fırlanğıc və fanq polotnolarından hazırlanır.

Liflərin xarakterinə görə idman camaşiri pambıqdan, viskoz ipəyindən, yarımipəkdən (pambıq ipliklə viskoz ipəyinin qarışığından) və yundan olur.

Yaşlılar üçün idman camaşirinə mayka, futbolka, qısa tuman, dəniz kostyumu, telnyajka və güləş geyimi daxil olur.

Maykalar quruluşuna görə aşağıdakı 3 tipə bölünür:

- I tip – qolsuz, yaxası qabaqdan iri və arxadan az kəsilmiş;
- II tip – qolsuz, yaxası qabaqdan və arxadan eyni qayda ilə kəsilmiş;

- III tip – qısa qollu, yaxası qabaqdan iri və arxadan az kəsilmiş olur.

Bütün maykalar bütöv və yanlardan tikişli ola bilər. Maykaların aşağısı içəri qatlanıb tikilir. Maykanın yaxası və qol yeri, habelə qolunun aşağısı ya tikişli olur, yaxud da maykanın öz rənginə müvafiq zolaq qoyulur.

Maykalar, əksəriyyətlə birüzlü hamar polotn6odan və qiçmən də press-ajur (press-naxış) və fırlanğıc polotnolarından hazırlanır. Ən çox yayılan pambıqdan, viskoz ipəyindən və yarımipəkdən olan maykalardır. Maykanın bəzi artikulları nazik yun iplikdən hazırlanır.

Futbolkalar quruluş etibarilə aşağıdakı 3 tipə bölünür:

- I tip – yaxası kəsik və yaxasının astar tərəfi düz plankalı;
- II tip – yaxası kəsik və yaxasının astar tərəfi fiqurlu formada plankalı;
- III tip – yaxası fiqurlu formada kəsik və trikotaj baftasından bəzəkli.

I və II tip futbolkaların öz rənginə uyğun qatlanmış boyunluğu olur. Bu tip futbolkaların yaxası ya qaytanla (I tip pambıq futbolkalarda) bağlanır (qaytan ilgəkdən keçir), ya da düymələnir. İpək futbolkaların yaxası bağsız da ola bilər. III tip futbolkaların boyunluğu və bağı olmur.

Bütün futbolkalar uzun qollu ola bilər. Qolun aşağısına lastik (bilək sarğısı) tikilir. Qısa qollu futbolkaların qolunun aşağısına trikotaj bafta qoyulur. Futbolkaların yanları bütöv və tikişli, çiyinləri tikişli və qoly erinə tərəfi çəpinə tikişli ola bilər.

Futbolkalar, əksəriyyətlə birüzlü hamar (malyez) və örtüklü polotnodan hazırlanır.

Futbolkalar lif etibarı ilə pambıqdan, viskoz ipəyindən, yarımipəkdən və yundan olur.

Futbolkaların ölçüsü maykaların ölçüsünə müvafiqdir. Futbolkanın ölçüsü bükülü halda santimetr hesabilə enini göstərir.

Kişilər üçün qısa tumanlar bir formada, yəni bütöv, yaxud tikişli, qabaqdaq bir tikişli, yaxud həm qabaqdaq, həm də arxadan bir tikişli olur. Bunların ölçüsü

maykalarda olduğu kimi işarələnir, lakin nömrəsi qabaq tərəfindən ortasının enindən 6 vahid artıq olur.

Dəniz kostyumları kişi və qadınlar üçn istehsal edilir. Kişi üçün olan dəniz kostyumları adətən satışa buraxılmır.qadın kostyumları aşağıdakı 2 tipdə buraxılır:

- I tip – çiyinləri bədəni ilə birlikdə biçilən (mayka kimi);
- II tip – aşırmalı və kürəyinin yuxarısı kəsik.

Qadınlar üçün hər iki tip dəniz kostyumlarının bədəni bel yeridən daraldılır, yuxarısı müxtəlif formada kəsik olur və yaxud ortadan kənarlara tərəf çəp kəsilir, ayaq hissələrinə isə aradan ikiqat calaq tikilir. Qadın dəniz kostyumunun yaxasının, qol yerinin və ayaq hissəsinin kənarı içəri qatlanıb tikilir, yaxud bafta vasitəsilə bəzədilir. I tip dəniz kostyumlarının son çiyninə 1-2 düymə tikilir. Hər iki tip kostyumlar kəmərli və kəmərsiz, naxışlı, yaxud sadə (baftadan, qaytandan və digər rəngli polotnodan bəzəkli) ola bilər və s.

Dəniz kostyumları birüzlü hamar, interlok, fırlanğıc və fanq t(lastik) polotnolarından hazırlanır. Lif etibarilə ən çox yayılmış dəniz kostyumları pambıqdan olanlardır, lakin bəzi artikullar yarımipəkdən və yundan hazırlanır.

Güləşənlər üçün geyim mürəkkəb quruluşlu məmulatdır. Bunun yaxası dərin kəsilir, qol yerpi enli və tumanı qısa olur. Güləşənlər üçün geyim birüzlü pambıq trikotaj polotnosundan hazırlanır.

Telnyajkalar dəniz fufaykasından ibarət olub, pambıq polotnodan hazırlanır. Bunun üzərində eninə tərəf ağ və göy zolaqlar salınır. Telnyajkaların qolları uzun olur və qollarının aşağısı qatlanıb tikilir. Telnyajkaların qollarına içəri tərəfdən, qol yerinin və qol tikişinin boyunca calaq verilir.

Telnyajkalar bütün ölçülərdə buraxılır və hər ölçünün nömrəsi santimetr hesabilə məmulatın eninə müvafiq olur.

Uşaq idman camaşiri yaşlılar üçün olan idman camaşirindən, yən maykadan, futbolkadan, qısa tumandan, dəniz kostyumundan, güləşənlər üçün tikilmiş geyimdən və telnyajkadan ibarətdir.

Uşaqlar üçün mayka və qısa tuman bütün ölçülərdə buraxılır. Futbolkalar və telnyajkalar 30 nömrədən yuxarı olur. Dəniz kotyumları və güləşənlər üçün geyimlər 39 və 42 nömrəli ölçülərdə buraxılır.

Material etibarilə üst trikotaj məmulatı camaşir məmulatından daha genişdir. Üst trikotaj məmulatının istehsalında hər növ istər eninə hörülən, istərsə də uzununa hörülən polotnolar tətbiq olunur.

Üst trikotaj məmulatı istehsal edilərkən çox geniş miqyasda əlvan hörülmüş, yəni müxtəlif rəngli iplikdən olan polotnolardan istifadə edilir. Bəzi üst trikotaj məmulatı tikilən zaman (don, bluzka, yubka) basma naxışlı (möhürlü) polotnolar tətbiq olunur. Belə naxış, adətən az uzanan polotnolara salınır. Bu naxış üçün fotofilimpeçat üsulundan istifadə edilir.

Bu üsul ondan ibarətdir ki, yayılmış trikotaj polotnosunun üstündə ipək parçadan xüsusi torlu çərçivə qoyulur, həmin tora başdan-başa xüsusi emulsiya sürtülür, torun ayrı-ayrı yerlərindən bu emulsiya müəyyən naxış şəklində götürülür. Sonra həmin tor, polotnonun üstünə qoyulub boyaq sürtülür. Emulsiyasız yerlərdən boyaq keçib polotnoya düşür və naxış salır.

Çərçivənin tədricən polotnonun üzərində yerini dəyişməsilə hər yerdə nxışlar salınmış olur. Naxış bir və bir neçə rəngdə olarsa, bu əməliyyat müxtəlif naxış salan bir neçə torlu çərçivə vasitəsilə başa gətirilir, burada hər dəfə çərçivə dəyişildikcə boyağın da rəngi dəyişilir.

Trikotaj polotnolardan başqa üst trikotajının istehsal zamanı parça, bafta, elastik lent, furnitura (düymə, «molniya» çarpazı, çalkeçir) və bir sıra digər materiallar tətbiq olunur.

Üst trikotaj məmulatının çoxu biçilmiş, yəni qabaqcadan hazırlanmış detallardan istehsal edilən məmulatdan ibarətdir. Üst trikotaj məmulatının istehsalı camaşir istehsalından, demək olar ki, heç də fərqlənmir. Üst trikotaj məmulatının bəzi xüsusiyyəti ondan ibarətdir ki, eni məmulatın detalları müxtəlif polotnolardan, məsələn, arxa hissəsi fanq polotnosundan, qabaq hissəsi isə raşel polotnosundan

hazırlana bilər. Müxtəlif polotnoların eyni məmulatda bu cür istifadə olunması xüsusilə uşaq üst trikotajına aiddir.

Biçilən üst trikotaj məmulatı ilə bərabər, həm də yarımhazır məmulat vardır. Bu məmulatın xüsusiyyəti ondan ibarətdir ki, burada ayrı-ayrı detallar polotnodan biçilməyib, maşınlarda hazırlanır. Çox zaman bu məmulatın zahiri görünüşünü və keyfiyyətini yaxşılaşdırır.

Yarımhazır məmulat, adətən fanq və jakkard-fanq maşınlarında hazırlanır. Ən tipik yarımhazır məmulat sviterdən ibarətdir.

Üst trikotajının istehsalında modelləşdirmə məsələsi camaşir istehsalına nisbətən daha mühüm rol oynayır. Üst trikotaj məmulatı modelinin keyfiyyəti çox zaman tətbiq edilən polotnonun nə dərəcədə uyğun seçilməsindən, yəni polotnodakı güllərin məmulatın təyinatına müvafiq olub-olmadığından, polotnodakı ipliklərin rəng etibarilə müvafiqliyindən və blaşqa şərtlərdən ibarətdir. Burada düymələrin və furnituranın düzgün seçilməsinin, çəki naxışları tətbiqinin, bədii naxışların və digər bəzək növlərinin əhəmiyyəti vardır.

Üst trikotaj məmulatı istehsalında ştapel liflərindən olan polotnolardan və süni ipəkdən ibarət tiftikli polotnolardan getdikcə geniş istifadə olunur. Bununla üst trikotaj məmulatının çeşidi zəncirləşir və zahiri görünüşü yaxşılaşır.

Trikotaj camaşirində olduğu kimi, üst trikotaj məmulatı da bir sıra əlamətə görə, o cümlədən məmulatın təyinatına, növünə, tiplərinə və fasonlarına, trikotaj polotnosunun növünə, ilk liflərinə və məmulatın ölçülərinə görə qruplaşdırılır.

Təyinatına görə üst trikotaj məmulatı iki qrupa, yəni yaşlılar və uşaqlar üçün məmulat qrupuna bölünür. Kişi və qadınlar üçün xüsusi üst trikotaj məmulatı bölgüsü yoxdur, çünki məmulatın çoxu eyni zamanda kişilərə və qadınlara məxsusdur. Belə məmulatlardan birinci növbədə sviteri, sonra isə pulloveri, jileti, pijamanı və xalatı göstərmək olar. Lakin bununla bərabər, üst trikotaj məmulatı qrupuna, xüsusi müəyyən təyinatı olan məmulat, məsələn, jaket, bluzka, yubka, don və s. daxildir.

Üst trikotaj məmulatının növləri olduqca müxtəlifdir. Bura pulover, jilet, jaket, cempir, pencək, don, bluzka, yubka, sviter, reytuz, kostyum, pijama və xalat daxildir. Bu məmulatın xarakteristikası aşağıda göstərilir.

Üst trikotaj məmulatının tipləri və fasonları çox müxtəlifdir. O, birinci nömbədə öz detalları ilə müəyyənləşdirilir.

Polotnosunun növünə görə üst trikotaj məmulatı raşel, fırlanğıc, fanq, jakkard-fanq, ilmə-naxış, interlok və malyez polotnolarından istehsal edilmiş məmulata bölünür. Hər növ məmulat, öz xassələrinə görə həmin məmulatın xüsusiyyətlərinə uyğun olsun deyə, adətən bir deyil, iki-üç tipli trikotaj polotnolardan hazırlanır. Məsələn, reytuz, adətən lastik və yarımfanq polotnolardan hazırlanır. Çünki bu polotnolar yaxşı uzanır, qadın donları və bluzkaları, çox zamaan nazik, gözəl və az uzanan fırlanğıc polotnolardan hazırlanır.

İlk liflərinə görə üst trikotaj məmulatı xalis yun, yarımyun, ştapel və viskoz qarışıqlı yun, yarımyun və natural ipəkdən ibarət olur. Tərkibində təxminən 10% yun və 90% pambıq olan məmulata viqon məmulatı deyilir.

Üst trikotaj məmulatının ölçüləri, camaşirin ölçüləri kimi istehlakçının döşünün səviyyəsindən santimetr hesabilə bədən çevrəsinin yarısını göstərir.

Yaşlılar üçün üst trikotaj məmulatının çeşidinə pulover, jilet, jaket, cempir, pencək, sviter, reytuz, don, bluzka, yubka, kostyum, pijama və xalat daxildir.

Pulover boyunluğu və düyməsi olmayan üst trikotaj məmulatıdır. Pullover başdan geyilir. Bu, əksəriyyətlə kişi geyimi sayılır, bəzən pulloverdən qadınlar da istifadə edir.

Pulover arxa və qabaq hissələrdən ibarətdir. Bu, ya bütöv, yaxud da ayrı-ayrı detallardan tikilir. Yuxarı tərəfindən pullovera fiqurlu, yaxud dairəvi yaxa qoyulur və bunun ətrafına lastik, yaxud bafta tikilir. Pulloverin aşağısı içəri qatlanıb tikilir, yaxud qnatlanmamış maşın vasitəsilə sırıq salınır və bəzən isə tikilmiş, yaxud hörülmüş lastiklə qurtarır. Pullover qollu və qolvuz olur. Pulloverin qolunun aşağısına, adətən bilək sarğısı, yaxud manjet tikilir, bəzən isə bu, maşında sarınır,

yaxud içəri qatlanır. Pulloverlər cibli və cibsiz buraxılır. Ciblər kəsik və üstdən qoyma olur.

Standarta əsasən pulloverlər aşağıdakı üç tipdə buraxılır:

- I tip – yaxası fiqurlu, yaxud dairəvi kəsilmiş, qolsuz, yaxud uzun qollu, aşağısı içəri qatlanmış, yaxud maşında sırınmış;
- II tip – yaxası dairəvi kəsilmiş, qolsuz, yaxud uzun və qısa qollu, aşağısı lastikli, yaxud ikiqat tikilmiş kəmərli, böyürdən düyməli;
- III tip – yaxası dairəvi kəsilmiş, uzun, yaxud qısa qollu, kəmərli, aşağısı qatlanmış, yaxud maşında sırınmış.

Pulloverlər müxtəlif növ polotnolardan hazırlanır. Çox zaman pulover istehsalında raşel, fanq və ilmə-naxış maşınlarından çıxan polotnolardan istifadə edilir. İlk liflərinə görə püllover pambıqdan, yundan, yarımyundan, yun ilə ştapel və viskoz qarışığından, pambıqla viskoz qarışığından, yaxud ştapel ilə pambıq iplik qarışığından olur.

Pulloverlər 44 nömrədən başlamış 54 nömrəyə qədər bütün ölçülərdə buraxılır. Pulloverin ölçüsü məmulatın bükülü halda qol yerinin səviyyəsindən santimetr hesabilə eninə müvafiq olur.

Jilet boyunluğu olmayan üst məmulatıdır. Yaxası aşağıdan yuxarıya qədər düymələnir. Jilet arxa hissədən və adətən yan tikişlə arxa hissəsinə birləşdirilmiş iki ətəkdən ibarətdir. Jiletin yuxarısında fiqurlu, yaxud dairəvi yaxa açılır və bunun da ətrafına ya bafta, yaxud da ikiqat lastik (yaxası dairəvi kəsilmiş hallarda) qoyulur.

Böyür ətəklərə də bafta sırınır. Jiletin aşağısı ya içəriyə qatlanır, ya da maşında sırınır və bəzən isə lastiklə qurtarır. Giletlər qollu və qolsuz ola bilər. Jiletin qolunun aşağısı pulloverdə olduğu kimi tikilir. Jiletlər cibsiz, yaxud cibli (kəsik, yaxud üstdən qoyma) buraxılır.

Təyinatına görə kişi və qadın jiletləri olur. Kişi jiletləri sağdan sola düymələnir.

Standarta əsasən jiletlər aşağıdakı iki tipdə buraxılır:

- I tip – aşağısı içəri qatlanmış, yaxud maşında sırınmış;
- II tip – tikişli, yaxud hörülmüş lastikli.

Jiletlər bütün ölçülərdə olur. Pullover üçün tətbiq edilən polotno növlərindən hazırlanır. Jiletin nömrəsi pulloverin nömrəsi kimi məmulatın qol yerinin aşağı səviyyəsində santimetr hesabilə eninə müvafiq olur.

Jaket jilet kimi bütün yaxası uzunu düymələnir, lakin bir qədər başqa quruluşda olur.

Jaketlər iki tipdə buraxılır:

- I tip – bədəni kəmər yerindən dar biçilmiş,ğ yaxud rezin salınmış, kəmərli və kəmərsiz, bədəninin aşağı hissəsində kəmər yerindən aşağı qırçınlı (hər yerində, yaxud təkcə ətəklərində);
- II tip – aşağı hissəsi tikmə, yaxud hörmə lastikli.

Jaketlər həmişə qollu olur və q7ollar isə ya qısa, ya da uzun, əlavə tikilmiş, yaxud bədəni ilə birlikdə hörülmüş olur.

Jaketin qollarının aşağı hissəsinə bilək sarğısı, yaxud manjet qoyulur və bəzən isə içəri qatlanıb tikilir və maşında sırınır. Jaketlərin çoxunda qatlanmış qalın boyunluq və habelə kəsmə, yaxud üstdən tikilmiş cib olur.

Təyinatına görə jaketlər qadın geyimi sayılır, ona görə də sağdan sola düymələnir. Jaketin bir ətəyi digər ətəyinin üzərinə çox keçəndə ikiyaxalı jaket, qalanlarına isə təkyaxalı jaket dey      ilir.

Jaketlər hər ölçüdə, yəni 44-dən 56 nömrəyə qədər ölçülərdə olur, əsasən fanq və raşel maşınlarından alınan birrəngli və əlvan hamar polotnodan hazırlanır. İlk liflərinə görə jaketlər pambıqdan, yundan, yarımyundan, pambıqla ştapel, yaxud viskoz qarışığından hazırlanır.

Fasonundan asılı olaraq pambıq jaketlər və viskoz qarışıqlı jaketlər preyskurant üzrə iki qrupa, yun və yarımyun jaketlər isə dörd qrupa bölünür. Birinci qrupa ən sadə fasonlu jaketlər, dördüncü qrupa isə ən mürəkkəb fasonlu jaketlər daxil edilir. Məsələn, yun və yarımyun jaketlərdən birinci qrupa sadə formalı, kəmərli, cibsiz, yaxud kəsmə cibli, adicə düz qollu və düz qatlanan

boyunluqlu jaketlər daxildir. Dördüncü qrupa 8-10 sm uzunluğu olan naxışlı, yaxud qabarıq toxunuşlu bel yerinə rezin kəmər,yaxud bafta salınmış, cibləri üstdən qoyulmuş, qolları reqlan, yaxud hamar və qol yerləri uzun olan jaketlər daxildir.

Cemper üst trikotaj məmulatıdır. Cemperdə qabaq tərəfdən, yaxud böyürdən yarımçıq yaxa yeri açılır. Cemper boyunluqlu və bloyunluqsuz, düyməsiz və düyməli («molniya» çrpazlı, yaxud düyməli) cibsiz və cibli (kəsmə, yaxud üstdən qoyma), kəmərli və kəmərsiz olur.

Cemperin aşağısı ya içəri qatlanıb maşında sırınır, ya lastiklə qurtarır və yaxud da ona böyürdən düymələnən ikiqat kəmər qoyulur. Cemperin qolları uzun və qısa olur. Qolların aşağısına ikiqat, yaxud təkqat bilək sarğısı tikilir, manjet qoyulur, yaxud da içəri qatlanıb maşında sırınır.

Standarta əsasən cemper aşağıdakı 3 qrupa bölünür:

- I tip – aşağısı 2-3 sm içəri qatlanıb tikilən;
- II tip – aşağısı hörülmüş, yaxud tikilmiş lastiklə (içərisinə rezin bafta salınan) qurtaran;
- III tip – aşağıda əsas, yaxud bəzək polotnosundan ibarət ikiqat kəmərlə qurtaran, böyürdən düymələnən.

Cemperlər də jaket kimi hamar və güllü polotnolardan hazırlanır. İlk liflərinə görə cemperlər pambıqdan, yundan, yarımyundan, viskozdan, pambıqla ştapel və viskoz qarışığından, yaxud yun ilə viskoz qarışığından olur.

Fasonlarına görə cemperlər də jaket kimi preyskurant üzrə qruplara bölünür. Belə ki, pambıq və viskoz cemperlər iki qrupa, yun və yarımyun cemperlər isə dörd qrupa bölünür. Bu bölgü, jaketlərdə olduğu kimi aparılır. Məsələn, birinci qrupa bədəni düz, uzun, yaxud qısa qollu, yaxasına lastik köbə qoyulmuş, kəmərli, yaxud kəmərsiz yun və yarımyun cemperlər daxildir.

Dördüncü qrupa isə naxışlı, yaxud qabarıq toxunuşlu müxtəlif rəngli polotnodan ibarət, kəmər yerində, yaxud yuxarısında büzməsi olan, uzun qollu (fasonlu), kəməri düyməli, yaxud çalkeçirli cemperlər daxildir.

Cemperlər bütün ölçülərdə buraxılır. Hər nömrə qol yerinin aşağısının səviyyəsində məmulatın ikiqat bükülmüş eninə müvafiq olur.

Sviter dar və dik boyunluqlu məmulatdır. Sviterin boyunluğu ya bədəninə bitişik, yaxud əlavə tikilmiş olur. Bəzi hallarda boyunluğa yandan dörd düymə, yaxud «molniya» çarpazı qoyulur. Sviterin qolları uzun olur və bilək sarğısı ilə qurtarır və düz formalı, yaxud biçilmiş qol yerlərinə tikilir. Sviterin bədəni bütöv, yaxud biçilmiş olur.

Sviterlər, əksəriyyətcə fanq polotnosundan hazırlanır. Lif etibarilə bunlar xalis yun, yarımyun və yun ilə viskoz qarışığından olur. Sviter bütün ölçülərdə buraxılır. Pambıq sviterlərin ikiqat qatlanmış həqiqi eni nömrəsindən 6 sm, yun və yarımyun sviterlərin isə 8 sm az olur.

Reytuz qadınlar üçün, yaxud idman üçün geyimdir. Q*adın reytuzu iki ədəd ayrı-ayrı hörülmüş ayaq və gövdə hissələrindən, habelə aralıq calağından ibarətdir. Reytuzun yuxarı hissəsinə içəridən rezin bafta salınır. Reytuzun ayaqlarının aşağısına lastik tikilir. İdman reytuzu uzun olur və ayaqlarının aşağı hissəsinə üzəngi tikilir.

Reytuzlar pambıqdan, yarımyundan və yundan hazırlanır. Reytuz üçün əksəriyyətlə yaxşı uzanan fanq polotnosu tətbiq olunur. Reytuz bütün ölçülərdə buraxılır. Reytuzun oturacaq yerinin eni qadın reytuzunun ölçüsündən 3 sm, idman reytuzunun ölçüsündən isə 5 sm az olur.

Trikotajdan don xüsusilə son zamanlar az uzanan trikotaj polotnosu istehsalının inkişafı ilə əlaqədar olaraq geniş yayılmışdır. Bu polotno donun formasını yaxşı mühafizə edir. Don müxtəlif fasonarda hazırlanır. Don çox zaman viskoz ipəyindən fırlanğıc və malyez maşınlarında, habelə yundan fanq maşınında hörülür. Donların ölçüləri 44-dən 54 nömrəyə qədər olur.

Bluzka bədən və qollardan ibarət məmulatdır. Bluzkanın bədəni bel hissəsində düz, yaxud dar, aşağıya getdikcə gen, böyürləri tikişli, yaxud bütöv olur. Bluzkanın arxa hissəsi hamar, yaxudğ da qırçınlı, qabaq hissəsi hamar, yaxud

qırçınlı, arası yuxarıya qədər kəsilmiş iki ətəkdən ibarətdir. Bluzkanın kənarlarına köbə qoyulur, yaxud içəriyə qatlanır.

Bluzka ya düymələnir, yaxud da enli qaytan ilə və bəzən də lent, yaxud bafta ilə bağlanır. Bluzkanın aşağısı içəri qatlanıb tikilir, yaxud baytaya köbələnir. Blunkanın çiynindən və qırçınından aşağıya doğru büzmələr, köklər, yaxud çin gedir. Bluzka qısa qollu və uzun qollu, manjetli, yaxud rezinli və bəzən də qatlanıb tikilmiş olur. Bluzka boyunluqlu, yaxud boyunluqsuz, cibli və cibsiz ola bilər. Bluzkalara çox zaman əlavə bəzəklər vurulur.

Bluzkalar, bir qayda olaraq viskoz və ipəkdən fırlanğıc, malyez raşel maşınlarında hörülmüş polotnolardan hazıprlanır. Bluzkalar bütün ölçülərdə buraxılır.

Yubka müxtəlif fasonlarda istehsal edilir. Yubka düz, aşağıdan gen ola bilər. Bu bir, iki, dörd, yaxud altı ədəd hamar, yaxud aşağıya doğru getdikcə genələn ətəkdən ibarət müxtəlif formada qırçınlı məmulatdır. Yubkanın yuxarısı içəri qatlanır və bir, yaxud iki sıra elastik rezin lent qoyulub, kəmər hissəsinə tikilir. Yubkanın aşağısı içəri qatlanıb tikilir.

Yubka çox zaman viskozdan, uzununa hörülən polotnodan və qismən isə pambıqdan olur, fanq polotnosundan hazırlanır. Yubka bütün ölçülərdə buraxılır.

Qadın kostyumu, adətən jaketdən və yubkadan, yaxud da cemperdən və yubkadan ibarət olur. Kostyumun fasonu, birinci növbədə jaketin, yaxud cemperin fasonu ilə təyin edilir.

İlk liflərinə görə trikotaj kostyumları pambıqdan, viskoz ipəyindən, pambıqla viskoz qarışığından, yarımyundan və yundan olur. Trikotaj kostyumları fanq, ilmə-naxış, raşel və fırlanğıc polotnolarından hazırlanır. Trikotaj kostyumları jaket kimi bütün ölçülərdə buraxılır.

Xizək kostyumu iki məmulatdan, yən kurtkadan və müxtəlif fasonlu reytuz adlanan tumandan ibarətdir. Xizək kostyumunun kurtkası arxa hissədən, qabaq hissədən, uzun qollardan və boyunluqdan ibarət olur. Kurtkanın qabaq və arxa hissələri bütöv və qırçınlı olur. Kurtkanın qabağı aşağıya qədər kəsik və düyməli,

yaxud «molniya» çarpazlı yarımkəsik olur. Kurtkanın aşağısı ya içəri qatlanıb tikilir, ya da ikiqat kəmər, yaxud lastiklə qurtarır və bəzən də bura elastik bafta salınır. Kurtkanın qollarına manjet, yaxud bəzəkli bafta qoyulur, bəzən də qollarının aşağısı içəri bükülüb tikilir, yaxud elastik bafta ilə qurtarır.

Xizək kostyumunun şalvarı iki ədəd eyni hissədən ibarət olur. Şalvarın aşağısı və yuxarısı, adətən içəri bükülüb tikilir və kənarına elastik bafta qoyulur. Xizək kostyumu bir qayda olaraq tiftikli polotnolardan hazırlanır.

Pijama kişi və qadınlar üçün ev kostyumundan ibarət məmulatdır.

Kişi pijaması pencəkdən və şalvardan ibarətdir. Kişi pijamasının pencəyinə, adətən enli, girdə boyunluq qoyulur və bunun uzun qolları və üç cibi (ikisi yanda, biri yuxarıda) olur. Kişi pijamasının şalvarı gen və iki ədəd düz formada ayan hissələrindən ibarətdir. Yuxarısına elastik bafta salınır, ya da kəmər və düymə tikilir, aşağısı isə manjet kimi üstünə qatlanır, yaxud içəri qatlanıb tikilir.

Qadın pijaması jaketdən və şalvardan ibarət olub, müxtəlif fasonlarda buraxılır. Bunlar gen və düz, yaxud bel hissəsindən dar, aşağıya getdikcə gen, ya da yuxarısı gen, bel hissəsi isə büzməli və aşağıya tərəf gen fasonlarda tikilir. Qadın pijamasının şalvarı ya düz olur, ya da aşağıy1a getdikcə ayaqları genəlir.

Pijamalar pambıüqdan, viskozdan, pambıqla viskoz qarışığından ibarət malyez, raşel və fırlanğıc polotnolarından hazırlanır. Bu polotnolar hamar və tiftikli olur. Pijamalar bütün ölçülərdə buraxılır.

Xalat kişi və qadınların evdə geyindikləri trikotaj məmulatıdır. Kişi xalatı gen, adətən girdə boyunluqlu, üstdən qoyma cibli və kəmərli olur. Qadın xalatı müxtəlif fasonlarda tikilir. Bunların bel yeri dar və aşağıya getdikcə gen, yarıya qədər gen və kəmərli, beli elastik bafta vasitəsilə büzülmüş olur.

Xalatlar pambıqdan, viskoz-dan və pambıqla viskoz qarışığından hazırlanır. Kişi xalatı üçün çox zaman tiftikli, qadın xalatı üçün isə həm tiftikli, həm də hamar polotno tətbiq olunur. Xalatlar bütün ölçülərdə buraxılır.

Uşaq üst trikotaj məmulatının çeşidinə yaşlılar üçün olan bütün üst trikotaj məmulatından başqa, həm də qısa üşaq tumanı, uşaq polotnosu, kofta və qarnitur daxildir.

Uşaq pulover, jilet, jaket və cemperləri yaşlılar üçün olan həmin məmulat kimi istehsal edilir və onlardan yalnız öz ölçüləri ilə fərqlənir.

Uşaq kostyumunun tərkibinə iki, üç və dörd məmulat daxil olur. İki məmulatdan ibarət kostyum, məsələn, jaketdən və yubkadan, cemperdən və yubkadan, cemperdən və reytuzdan, reytuzdan və sviterdən, bluzkadan və yubkadan ibarət olur. Üç məmulatdan ibarət kostyuma sviter, reytuz və papaqcıq, dörd məmulatdan ibarət kostyuma isə sviter, reytuz, şarf və şapkacıq daxil olur.

Uşaq xizək kostyumları yaşlılar üçün olan xizək kostyumları tipində hazırlanır.

Uşaq sviteri, bir qayda olaraq bütöv boyunluqlu buraxılır.

Uşaq reytuzu həm uzun üzəngili, həm də qısa üzəngili və üzəngisiz ola bilər.

Uşaq bluzka və yubkaları az yayılmışdır. Bunlar 40 və 42 ölçüdə hazırlanır.

Uşaq donu müxtəlif fasonlarda olur və pambıq, viskoz, yun liflərindən ibarət malyez, fanq, raşel, fırlanğıc polotnolarından hazırlanır.

Uşaq qısa tumanı müxtəlif fasonlarda, yəni qısa və aşırmalı, qismən uzun və kəməri rezin baytalı, yaxud da kəməri düyməli buraxılır.

Uşaq paltosu iki tipdə hazırlanır. Bunlar başlıqlı və başlıqsız olur. Uşaq paltosu tiftikli pambıq, yarımipək və yarımyun polotnolardan hörülür.

Uşaq koftası tiftikli pambıq polotnodan olur. Bu, 2 yaşlı uşaqlar üçün buraxılır. Ayrı-ayrı hallarda bu koftalar çepçiklə birlikdə satılır.

Uşaq qarnituru (2 yaşlı uşaqlar üçün) don, kapor və tapoçkadan (ayaq geyimi) ibarət olur.

Trikotaj məmulatının ölçüləri ilə uşaqların yaşı arasında, təxminən aşağıdakı nisbətlər vardır: 26 və 28 nömrəli məmulat – 2 yaşına qədər uşaq üçündür; 30 və 32 nömrəli məmulat 3-dən 5 yaşına qədər uşaqlar üçündür; 34 və 36 nömrəli məmulat 6-dan 8 yaşına qədər uşaqlar üçündür; 38 və 40 nömrəli məmulat 9-dan

12 yaşına qədər uşaqlar üçündür; 42 nömrəli məmulat isə 13 yaşından yuxarı yaşlı uşaqlar üçündür.

Trikotaj camaşirində olduğu kimi, uşaqlara lazım olan üst trikotaj məmulatının ölçüsünün təxmini müəyyənləşdirilməsi üçün uşağın yaşına şərti olaraq 26 əlavə edilir.

Əlcəklər. İstehsal üsullarına görə əlcəklər tikişli və hörmə olur.

Tikişli əlcəklər. Çox sıx xüsusi trikotaj polotnosundan hazırlanır. Bu əlcəklərin istehsalı polotnonun biçilməsindən, tikilməsindən, bəzədilməsindən, yamaq əməliyyatından, sortlaşdırılmasından və qablaşdırılmasından ibartdir. Bütün tikişli əlcəklərin dal tərəfində bəzək tikişləri (svikkel) salınır. Bu tikişlər süni ipək saplarından, yaxud merserizə edilmiş pambıq iplikdən ibarət olur.

Tikişli əlcəklər bir sıra əlamətlərə (mövsümünə, materialına, yaş-cins bölgüsünə, tiplərinə və ölçülərinə) görə bölünür.

Mövsümə görə tikişli əlcəklər yay, demisezon və qış əlcəklərinə ayrılır. Material etibarilə əlcəklər pambıqdan, süni ipəkdən və yarımipəkdən olur. Yaş-cins təyinatına görə tikişli əlcəklər kişi, qadın və uşaq əlcəklərinə bölünür. Əlcəklərin tipii bilək hissəsinin formasından və quruluşundan, habelə düymələnməsinin xarakterindən asılı olur. Qadın əlcəkləri 6 tipdə buraxılır:

- I tip – biləyi rezinli əlcək;
- II tip – biləyi düyməli əlcək;
- III tip – kraqa (əlavə biləkli) tikilmiş əlcək;
- IV tip – bilək hissəsi bir və bir neçə yerdən kəsik əlcək;
- V tip – bildəyi aşağıya doğru gen əlcək;
- VI tip – uzun biləkli əlcək (teatr əlcəyi).

Kişi əlcəkləri yuxarıda göstərilən yalnız I və II tiplərdə, uşaq əlcəkləri isə I-V tiplərdə buraxılır.

Tikişli əlcəklərin ölçüsü nömrə ilə göstərilir. Nömrə santimetr hesbilə istehlakçının əlinin baş barmağı ilə şəhadət barmağının oturacaqlarının arasından gedən xətdən götürülməklə, əl çevrəsinin yarısını xarakterizə edir.

Hörmə əlcəklər, adətən iki dəfə xüsusi fanq maşınlarında hazırlanır. Birinci maşında əlcəyin bilək və ovuc hissəsi, ikinci maşında isə barmaqları hörülür. Bu əlcəklərin bilək hissəsi (rezini) lastik toxunuşunda (bəzən fanq, yarımfanq, jakkard), ovuc hissəsi və barmaqlar isə eninə hörülən birüzlü toxunuşda istehsal edilir. Bu əlcəklərin bilək hissəsi elə tikilir ki, tikiş əlcəyin içərisində qalır.

Hörmə əlcəkləri hörülmənin xarakterinə, materialına, yaş-cins təyinatına, tipinə və ölçüsünə görə bölünür. Hörmənin xarakterinə görə əlcəklər birqat və ikiqat, materialına görə pambıq, yarımyun, yun ilə ştapel liflərinin qarışığından olan, xalis yun və tiftik (keçi tiftiyi), yaş-cins təyinatına görə isə kişi, qadın və uşaq əlcəklərinə ayrılır.

Kişi əlcəkləri, bir qayda olaraq saya boyanır. Qadın və uşaq əlcəkləri isə çox zaman əlvansaplı və müxtəlif bəzəkli olur.

Hörmə əlcəklər aşağıdakı 4 tipdə buraxılır:

- I tip – bilək hissəsi düzbucaqlı əlcək;
- II tip – qısa kraqalı (əlavə qısa biləkli) əlcək;
- III tip – kraqalı (əlavə biləkli) əlcək;
- IV tip – ikibarmaqlı, bilək hissəsi düzbucaqlı əlcək.

Hörmə əlcəklərin ölçüləri, tikişli əlcəklərdə olduğu kimi nömrələrlə işarələnir. Hörmə əlcəklərin hər nömrəsi onların santimetr hesabilə eninə müvafiq olur.

## 3.2. Uşaq geyimlərinin orqanoleptiki və laboratoriya üsulları və ekspertizası

Bütün trikotaj məmulatı keyfiyyət etibarilə 1-ci və 2-ci sortolara ayrılır. Trikotaj məmulatının sortu zahirində müşahidə edilən qüsurlarına, ölçü fərqlərinə və boyağının sabitlik dərəcəsinə görə müəyyənləşdiprilir.

Trikotaj məmulatının zahiri qüsurları ipliyin və sapın, hörmənin və bəzəyin qüsurlu olmasından, yanlış biçilməsindən, yanlış tikilməsindən irəli gəlir. Bu qüsurların bəziləri məmulatın zahiri görünüşünü pozur, onun möhkəmliyini və xidmət müddətini azaldır. Əsas zahiri qüsurların xarakteristikası aşağıda dərc edilir.

İpliyin həddindən artıq qalın, yaxud nazik olması. Eninə hörülən məmulatda bu qüsur köndələn gedən, uzununa hörülən məmulatda isə dolambac və uzununa gedən zolaqlardan ibarət olur. Bütün trikotaj məmulatında ipliyin müəyyən imkan daxilində yoğun və nazik olmasına yol verilir. Uzununa hörülən uzunboğaz corablarda görünən yerlərdə iki ilmə sırası miqdarında, girdə corab maşınlarında hörülən uzunboğaz corablarda eni 2 sm-ə qədər, camaşirdə ən çx 10 sıra qonşu və 12 sıra dağınıq yerlərdə, üst trikotajında isə ən çox 8 sıra qonşu və 14 sıra dağınıq yerlərdə yoğun ipliklərə icazə verilir.

Bir sapın qırılmasından əmələ gələn naziklik. Bu qüsur 2-3 qat iplikdən hörülən məmulatda olur. Corab məmulatında bu qüsur əlavə sapın qırılmas ilə əmələ gəlir. Uzunboğaz corablarda, xüsusən yastıhörən maşınlardan çıxan uzunboğaz corablarda bu qüsur çox dözülməz hal sayılır və yalnız 3-cü sortda icazə verilir.

Trikotaj camaşirində bir sapın qırılmasına 2-ci (5 sm uzunluqda) və 3-cü sortda (10 sm uzunluqda), üst trikotajında isə 3-cü sortda (4 sm uzunluqda) icazə verilir.

Ayrı-ayrı elementar liflərin qırılmasından əmələ gələn naziklik. Bu qüsur süni iplikdən hörülən məmulatda müşahidə edilir və ancaq 2-ci və 3-cü sortlarda (müəyyən miqdarda olmaqla) yol verilir.

Zolaq qüsuru. Bu qüsur köndələn gedən zolaqlardan ibarət olub ipliyin, boyağın, yaxud eşmə əməliyyatının nahamarlığından əmələ gəlir. Burada məmulatın yalnız zahiri görünüşü pozulur. Yastı corab maşınlarından çıxan uzunboğaz corablarda bu qüsur görünən yerlərdə yalnız 3-cü sortda, girdə corab maşınlarından çıxan uzunboğaz corablarda, trikotaj camaşirində və üst trikotajında isə bütün məmulatda icazə verilir.

Lüzumsuz sapdan əmələ gələn qalınlıq. Bu qüsur köndələn, yaxud dolambac gedən zolaqlardan ibarət olur və uzununa hörülən trikotaj (üst və alt) məmulatında rast gəlinir. Bu qüsur yalnız məmulatın zahiri görünüşünə təsir edir.

İlmə sıralırının sıxlığından və seyrəkliyindən əmələ gələn zolaqlar. Bu qüsur iynələrin qeyri-bərabər q7aydada iynədanlığa yerləşdirilməsindən, yaxud ayrı-ayrı iynələrin çatmamazlığından baş verir. Camaşir məmulatında bu qüsur nəzərə alınmır, qalan məmulatda isə hər sorta müəyyən hüdud daxilində icazə verilir. Kirdən, yağdan və s. səbəblərdən əmələ gələn zolaqlar. Bu qüsur kirlənmiş, yağlı, yaxud başqa rəngə boyanmış ipliklərdən baş verir. Corab mallarında buna icazə verilmir, camaşirdə ən çox 5 ilmə sütunu, yaxud sırası, üst trikotajında isə ən çox 10 sm uzunluqda yol verilir.

İlmə qaçması. Bu qüsur iynə qarmağının sınması, yaxud iynənin düzgün işləməməsi nəicəsində baş verir və mühüm qüsur sayılır. Corablarda və camaşirdə buna yol verilmir, üst trikotajında isə (ən çox 10 ədəd) yalnız uzununa hörülən və jakkard polotnolarında yol verilir.

İlmələrin qalxması. Bu qüsura yastı corab maşınlarında hörülən uzunboğaz corabların baldırının aşağı hissəsində heç yol verilmir. Bütün qalan məmulatda isə buna müəyyən hüdud daxilində yol verilir, məsələn, camaşirdə ən çox 8 ədəd, üst trikotajında ən çox 5 ədəd (malyez və fırlanğıc polotnolarında), yaxud ən çox 3 ilmə sütunu miqdarında (fanq, ilmə-naxış və raşel polotnolarında), girdə corab

maşınlarından çıxan məmulatda isə ümumiyyətlə ən çox 10 sm uzunluqda icazə verilir.

Yamaq ilmə sıralarının qarmaq, yaxud iynə vasitəsilə bərpa edilməsinə deyilir. Qadın üçün olan uzunboğaz corablarda (yastı corab maşınlarında hörülən) yamağa yalnız 2-ci və 3-cü sortlarda, o da ən çox 0,5 sm uzunluqda corabın baldır hissəsində olmaq şərtilə icazə verilir. Girdə corab maşınlarında hörülən məmulatda bu yamaq bütün sortlarda, lakin müxtəlif yerlərdə və müxtəlif miqdarda olmaqla icazə verilir. Camaşirdə və üst trikotajında bu yamağa yalnız ümumiyyətlə 3 sm uzunluqda olmaqla 2-ci və 3-cü sortlarda icazə verilir.

Yalançı ilmələr. Bu qüsur ayrı-ayrı ilmələrin ölçüsünün pozulmasından ibarət olub, iynələrin düzgün işləməməsi nəticəsində baş verir. Bu qüsura müəyyəq hüdud daxilində trikotaj məmulatının bütün sortlarında yol verilir.

Kələ-kötürlülük. Bu qüsur məmulatın üst tərəfində köndələn gedən zolaqlardan və alt tərəfində sallanan saplardan ibarət olub, ilmələrin düzgün şəkildə iynələrə geydirilməməsi nəticəsində baş verir. Buna trikotaj camaşirində və üst trikotajında rast gəlinir.

Naxışın əyilməsi. Bu qüsur naxışlı məmulatda ilmə naxışının pozulmasından ibarətdir. Bu, məmulatın naxışının pozulmaması şərtilə hər sortda icazə verilir.

Astar sapın üzə çıx=massı. Bu üqüsur örtüklü trikotajda astar sapının üzə çıxmasından ibarətdir. Camaşir məmulatında bu qüsur zolaq qüsuruna bərabərləşdirilir və bütün sortlarda icazə verilir. Üst trikotaj məmulatının 1-ci sortunda buna icazə verilmir, corab mallarında isə məhdud miqyasda icazə verilir.

Boyaq qüsuru məmulatın üzərində müxtəlif rəngli zolaqların və ləkələrin əmələ gəlməsi deməkdir. Bunun səbəbi polotnonun qeyri-bərabər qaydada boyanmasından, yaxud ütülənən zaman boyağın rənginin dəyişməsindən ibarətdir. Bu qüsura trikotaj məmulatının bütün növlərində icazə verilir.

Zalom qüsuru. Bu qüsur uzununa gedən və məmulatın ümumi rəngindən fərqlənən zolaqlardan ibarət olmaqla, boyaq cihazının qeyri-düzgün işləməsi nəticəsində əmələ gəlir. Bu qüsura 3-cü sort üst və alt trikotajında icazə verilir.

Ləkə. Trikotaj məmulatında ləkə müxtəlif səbəblərdən, məsələn, polotnonun az qaynadılmasından (kirli ləkələr), ehtiyatsız hərəkətlərdən (pas ləkələri), yağ damcısından (yağlı ləkələr), boyağın pis keyfiyyətli olmasından (boyaq ləkələri) və s. səbəblərdən əmələ gəlir.

Mürəkkəb ləkəsinə və qara ləkələrə trikotaj məmulatında heç icazə verilmir. Başqa növ ləkələrə müəyyən hüdud daxilində olmaqla, 2-ci və 3-cü sortlarda icazə verilir.

Tiftiksiz qalan yerlər. Bu qüsur polotnonun üzərində tiftiksiz qalan yerlərdən ibarət olur və 2-ci, 3-cü sort trikotaj camaşirində ən çox 30 $sm^2$ və üst trikotajında isə ən çox 4 $sm^2$ icazə verilir.

Əyri kettel tikiş. Bu qüsur kettel tikişinin bucaqlarında əmələ gələn kisəciklərdən ibarətdir. Bu qüsura başlıca olaraq, girdə corab maşınlarından çıxan corab məmulatında rast gəlinir. 1-ci sort məmulatda, məmulatın burnu dartılan zaman itən əyri kettel tikişinə, 2-ci və 3-cü sortlarda isə itməyən, lakin ən çox 2-ci sortda 0,5 sm və 3-cü sortda ən çox 1 sm uzunluqda əyri kettel tikişlərinə icazə verilir.

Əlavə bort. Bu qüsura yalnız kard üsulunda əyirilmiş pambıq iplikdən olan 3-cü sort uzunboğaz corablarda icazə verilir.

Yaraşıq tikişinin əyilməsi. Bu qüsur girdə corab maşınlarında hörülən uzunboğaz corablardakı tikişin əyri getməsindən ibarətdir. Bəzək tikişi baldırın orta xəttindən 0,5 sm (1-ci sortda), 1 sm (2-ci sortda) və 1,5 sm (3-cü sortda) yayındırıla bilər.

Svikkel ilmələrinin buraxılması. Bu qüsura 1 sm-dən uzun olmamaq şərtilə 3-cü sort varejkalarda yol verilir.

Ölçü fərqləri. Bu qüsur qrupuna eyni məmulatın eyni adlı detallarının ölçü etibarilə bir-birindən fərqlənməsi, bəzi detalların əyri olması və əyri yerləşməsi, cüt məmulatın hər tayının bir-birindən fərqli olması və standartlar və texniki şərtlərlə müəyyənləşdirilmiş ölçü normalarının pozulması daxildir.

Trikotaj camaşirində və üst trikotaj məmulatında ölçü fərqlərindən ibarət qüsurlardan qolların müxtəlif uzunluqda və endə olmasını, bilək hissəsinin müxtəlif uzunluqda olmasını, çiyin və ətək hissələrinin müxtəlif endə olmasını, ayaq hissələrinin müxtəlif uzunluqda və endə olmasını, boyunluğun uclarının müxtəlif uzunluqda olmasını, camaşir məmulatında plankanın və qabaq kəsiyin orta xətdən yayındırılmasını, fufaykaların peysər hissəsinin əyri biçilməsini, ətəklərin müxtəlif uzunluqda olmasını, cib qapağının müxtəlif uzunluqda və endə olmasını, ciblərin yerində olmamasını və üst trikotajında yan tikilişlərin əyri olmasını göstərmək olar.

Corab mallarında ölçü qüsurları da ola bilər (ümumi uzunluğun, boğaz hissəsinin və dabanın ucalığının kəsir olması, taykeş olması, boğazının, dabanının ucalığı və s.).

Əlcək və varejkalarda ölçü qüsuru ümumi uzunluq və ön ölçülərinin pozulmasından, barmaqların uzununun və eninin svikkel tikişlərinin pozulmasından və taykeş olmasından, yəni taylarının bir-birindən fərqli olmasından ibarətdir.

Hər sort üçün ölçü fərqləri trikotaj məmulatının sortlaşdırılmasına dair standartlarda və texniki şərtlərdə göstərilmişdir.

Trikotaj malları boyağının işığa, sabunlu məhlulun təsirinə, tərə, sürtülməyə və başqa təsirlərə qarşı davamlılığı yoxlanılır.

Bu və ya digər amilin təsirindən sonra məmulat nümunəsinin ilk rəngini itirməsi dərəcəsinə əsasən boyağın sabitliyi haqqında mühakimə yürüdülür. Boyağın sabunlu məhlula, tərə, ütüyə və sürtülməyə qarşı sabitliyi yoxlanarkən həm də yoxlanan məmulat nümunəsinin öz rəngini nə dərəcədə onunla birlikdfə emaldan keçirilən ağ parça tikəsinə keçirdiyinə fikir verilir.

Boyağın sabitliyi 1, 2, 3, 4 və 5 ball vahidlərilə qiymətləndirilir. 5 ball yoxlanan nümunənin rənginin dəyişilmədiyini və öz rəngini ağ parça tikəsinə keçirmədiyini xarakterizə edir. 4 ball məmulat nümunəsinin azacıq açıq rəng kəsb etdiyini və ona bükülən ağ parça tikəsinin azacıq boyandığını, 3 ball məmulat

nümunəsinin bir qədər açıq rəng kəsb etdiyini, ağ parça nümunəsinin isə bir qədər boyandığını, 2 ball məmulat nümunəsini xeyli açıq rəngə düşdüyünü və ağ parça tikəsinin xeyli boyandığını, nəhayət 1 ball isə məmulat nümunəsinin öz rəngini itirdiyini və ağ parça tikəsinin çox boyandığını göstərir.

Məmulat nümunəsi rənginin dəyişilməsi dərəcəsi xüsusi etalonlarla müqayisə edilir.

Boyaqların bu və ya digər təsirlərə müqavimətindən asılı olaraq trikotaj məmulatının boyaq sabitliyi 3 qrupa, yəni adi sabitlik, sabit və xüsusilə sabitlik qruplarına bölünür.

Trikotaj məmulatının boyaq cəhətdən sabitlik dərəcəsi yalnız laboratoriyada dəqiq yoxlana bilər. Trikotaj məmulatını ticarət şəbəkəsində qəbul edərkən boyağın sabitlik dərəcəsi sadə üsulla yoxlanılır. Burada ağ parça tikəsi 10 dəfə bir tərəfə və 10 dəfə qarşı tərəfə sürtülür. Bu hərəkətdən sonra parça tikəsində boyaq müşahidə edilərsə, həmin məmulatın boyağının sabitliyi mütləq laboratoriyada yoxlanmalıdır.

Sortlaşdırma qaydaları. Trikotaj mallarını sortlaşdırarkən hər qrup məmulatdan ən azı 10% miqdarında nümunə götürülür.Bütün götürülən nümunələrdə yarlıqların mövcud olub-olmadığı və onların düzgün doldurulub-doldurulmadığı yoxlanılır. Bundan sonra məmulat masanın üzərinə sərilib əl vasitəsilə sığallanır, qırışlardan və qatlardan azad edilir və ölçüləri yoxlanır.

Corabların ölçüsü yoxlanan zaman qapağı tutqun şüşəli xüsusi yeşiklərdən istifadə olunur. Bu şüşənin üzərində QOST-a müvafiq I sort corabın cizgiləri çəkilmişdir. Corabın böyründən boğazının yuxarısında və barmağının ucunda millimetr bölgüləri cızılıb 2-ci və 3-cü sortlara aid icazə verilən ölçü fərqləri göstərilmişdir. Corabı sığallayıb həmin cizgilərin üzərinə qoyduqda, onun ölçülərinin standart şərtlərinə müvafiq olub-olmadığı müəyyənləşdirilir. Yeşiyin içində elektrik lampası yerləşdirilir. Həmin lampa alt tərəfdən corabı işıqlandırır və onun hörməsinin keyfiyyətini yoxlamağı asanlaşdırır.

Ölçüsü yoxlanmış məmulat diqqətlə müayinədən keçirilir, zahiri qüsurları varsa meydana çıxarılır. Burada hər qüsurun xarakteri, qüsurun ölçüsü, məmulatın üzərində tutduğu yeri (gözə çarpan, yaxud gizli yerlərdə olması) və qüsurların ümumi miqdarı nəzərə alınır.

Sonra ölçü göstəricilərinə və müayinə nəticələrinə əsasən məmulatın sortu müəyyənləşdirilir. Bunun üçün ölçü göstəriciləri və müayinə nəticələri hər sortun standart normaları ilə müqayisə edilir.

Məmulatda müxtəlif sortlar üzrə standartda icazə verilən qüsur müşahidə edildikdə, onun sortu aşağı salınır. Hər corab tayında bir ədəd zahiri görünüş qüsurunun mövcud olması, yaxud hər cütündə bir ədəd ölçü fərqi bütün cütə aid bir qüsur sayılır.

Trikotaj məmulatının hər sortunda qüsurların ümumi miqdarı məhduddur. Məsələn, viskoz ipəyində, yundan və yarımyundan hazırlanan bütün corab məmulatında, habelə camaşir və üst trikotaj məmulatında ən çox ikip qüsura, pambıqdan hazırlanan camaşir və üst trikotaj məmulatında isə ən çox üç qüsura icazə veilir. Bir sortda icazə verilən miqdardan artıq olan qüsurlar məmulatı aşağı sorta, məsələn 1-ci sortdan 2-ci sorta, 2-ci sortdan 3-cü sorta və 3-cü sortdan isə braka keçirir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

«Modelləşdirmə və quraşdırma əməliyyatlarının uşaq geyimlərinin istehlak xassələrinə təsirinin ekspertizası»na həsr olunmuş magistr dissertasiya işinin ədəbiyyat icmalı və tədqiqat hissələrini yekunlaşdıraraq aşağıdakı nəticə və təklifləri vermək olar:

1. Uşaq geyimlərinin keyfiyyəti bir çox amillərdən asılıdır. Buraya geyimlərin materialının xassələri, onların lif tərkibi, koloristik tərtibatı, model və quraşdırılması, geyimlərə müxtəlif xassə verilməsi üçün onların emal olunması, məhz buna görə uşaq geyimlərinin keyfiyyəti yoxlanarkən adları çəkilən göstəricilərə diqqət verilməlidir. Xüsusilə xaricdən daxil olan uşaq geyimlərinin keyfiyyəti yoxlanarkən bu göstəricilər əsas götürülməlidir.
2. Uşaq geyimlərinin lif tərkibinə xüsusi fikir verilməlidir. Kiçik yaşlı uşaqlar üçün olan geyimlərin 100% sintetik lifdən istehsal edilməsi beynəlxalq miqyasda qadağan edilmişdir. Belə geyimlərin istehlak bazarına daxil olmasının qarşısı alınmalıdır. Bu geyimlər uşaqların sağlamlığına təhlükə törədir, hava, buxar keçirməyən belə mallar uşaqlarda allergiya, qıcıqlanma, boğulma halları yaradır.
3. Uşaq geyimlərinin quraşdırılması dedikdə, istehsal üçün təsdiq edilmiş modellərdən ötrü müxtəlif ölçü və uzunluqda paltar hissələrinin ülgüləri hazırlanır. Ülgü hazırlamaq prosesinə quraşdırma deyilir. Uşaq geyimlərinin quraşdırılması zamanı biz təlif edirik ki, ülgülər hər bir model üçün markalansın, hissələrin nömrəsi, fasonu, ölçüsü və adı göstərilsin.
4. Uşaq geyimləri uşaqların müxtəlif material və qeyri-material tələblərini ödəyir. Material tələblərinə bəzən də utilitar tələblər deyilir. Əsasən geyimin öz funksiyasını ödəməsi başa düşülür. Qeyri-material tələblər

sosial-ictimai mühitdə formalaşır. Uşaq geyimləri uşaqların xarici görünüşünü formalaşdırdığına görə bunlara esteik tələblər deyilir. Ona görə təklif edirik ki, uşaq geyimləri modelləşdirərkən, estetik tələblərə üstünlük verilsin.

5. Uşaq geyimlərinin modelləşdirilməsi zamanı kompozisiya bütövlüyü əsas elementlərdən biridir. Kompozisiya bütövlüyünün elementlərindən biri də rəngdir. Rəng uşaqlara daha güclü emosional təsir göstərir. Rənglərin birləşməsinə kolorit deyilir. Ona görə uşaq geyimlərində, adətən bir neçə rəng birləşir. Bu göstərilənləri nəzərə alaraq təklif edirik ki, modelləşdirmə zamanı uşaq geyimlərinin bədii koloristik tərtibatına xüsusi fikir verilsin.

# ƏDƏBİYYAT


1. Ə.P.Həsənov və b. Qeyri-ərzaq mallarının ekspertizası. I hissə. Bakı. Çaşıoğlu. 2006.
2. Ə.P.Həsənov və b. Qeyri-ərzq mallarının ekspertizasının nəzəri əsasları. Bakı. 2010.
3. Ə.P.Həsənov və b. Qeyri-ərzaq mallarının ekspertizasının praktikumu. Bakı. 2014.
4. Ə.P.Həsənov və b. İstehlak mallarının esteikası. Bakı. 2014.
5. Ə.P.Həsənov. Tikili mallar əmtəəşünaslığı. Bakı. 1982.
6. Ə.P.Həsənov və b. Qeyri-ərzaq mallarının əmtəəşünaslığı. Bakı. 1987.
7. О.Д.Кащенко. Покупателю об одежде и моде. М.: 1996.
8. Д.Корнелл. Гардероб современной женщины.М.: Ниола-Пресс.1996 .
9. Т.С.Гусейнова. Товароведение швейных и текстильных товаров. М.: Экономика. 1979.
10. Н.В.Ерзенкова. Искусство красиво одеваться. Рига. 1992.
11. В.М.Зайцев. Этот многоликий мир моды. М.: 1992.
12. В.П.Крутоис. Путь к прекрасному. М.: 1995.
13. Л.Г.Кибалова. Иллюстрированная энциклопедия моды. М.: 1996.
14. Е.В.Киреева. История костюма. М.: 1996.
15. Л.В.Орлова. Азбука моды. М.: 1999.
16. К.К.Стамеров. Очерки истории костюмов. М.: 1998.
17. Л.П.Шершнева. Конструирование детской одежды. М.: 2008.
18. Н.М.Чечеткина, Т.И.Путилина. Экспертиза товаров. М.: 2000.
19. С.В.Семенко. Экспертиза товаров. Белгород. 1999.
20. М.А.Николаева. Товарная экспертиза. М.: 1998.
21. В.П.Федько. Маркировка и сертификация товаров и услуг. М.: 1997.
22. В.Е.Беденко. Технологические свойства швейных товаров. М.: 1997.
23. С.А.Беляева. Основные виды меха для одежды. М.: 1999.

24.К.Г.Гущина. Технические требования к материалам для одежды. М.: 1999.
25.К.Г.Гущина. Использование новых материалов для одежды. М.: 1999.
26.А.Д.Клепцов. Разработка способа повышения устойчивости формы деталей одежды. М.: 2000.
27.П.А.Колесников. Основы проектирования теплозащитной одежды. М.: 2005.
28.Е.Я.Командрикова. Метод определения воздухопроницаемости материалов для одежды. М.: 2000.
29.Е.Я.Командрикова. Метод определения теплофизических свойств материалов для одежды. М.: 2001.
30.В.П.Федоров. Товароведческие экспертизы. М.: 1998.
31.Ф.П.Пудник. Ремонт одежды. М.: 1995.
32.З.Д.Дудина. Перелицовка и восстановление одежды. М.: 1998.
33.К.Г.Гущина. К вопросу о повышении износоустойчивости мужского костюма. М.: 1998.
34.Л.Н.Панкова. Исследование величины и распределения усилий ткани при эксплуатации, изготовленных из нее мужских костюмов. Кандидатская диссертация. М.: 1990.
35.Л.Н.Панкова. Технология изготовления одежды. М.: 1992.
36.И.С.Марголин. Стойкость к истиранию шерстяных костюмных тканей. М.: 1990.
37.И.С.Марголин. Исследование костюмных тканей из шерсти. М.: 1990.
38.И.П.Попов. Уход за одеждой. М.: 1995.
39.Д.А.Кобылянский. Новое в оценке качества швейных изделий. М.: 1998.

40. В.В.Бернацкая. Разработка методики определения прочности швейных изделий. М.: 1992.
41. А.М.Шпаер. Новые материалы в швейной промышленности. М.: 1998.
42. М.Н.Никитин. Проектирование одежды. М.: 1995.
43. С.И.Русаков. Технология швейного производства. М.: 1992.
44. Л.Д.Дяблова. Режимы влажно-тепловой обработки при изготовлении мужской верхней одежды. М.: 1996.
45. Л.Г.Лейтес. Разработка тканей для форменной одежды. М.: 1998.
46. И.С.Марголин. О химических волокнах для шерстяной промышленности. М.: 2005.
47. И.С.Марголин. Применение синтетических волокон в швейной промышленности. М.: 1995.
48. И.С.Марголин. Исследование костюмных тканей из синтетических волокон. М.: 1995.
49. А.И.Николаев. Товароведение швейных товаров. М.: 1990.
50. Г.Н.Кукин. Текстильное материаловедение. М.: 1964.
51. Л.А.Лувиншис. Стойкость суконных костюмных тканей кА истиранию. М.: 1984.
52. ГОСТ 25652-83 «Материалы для одежды. Общие требования к способам ухода».

# REFERAT

**Mövzunun aktuallığı**. Modelləşdirmə və quraşdırma əməliyyatları uşaq geyimlərinin istehlak xassələrinə birbaşa təsir edir. Uşaq geyimlərinə bir çox tələblər verilir. Uşaq geyimləri bütün tələbləri ödəmək üçün kompleks istehlak xassələrinə malik olmalıdır. Modelləşdirmə və quraşdırma əməliyyatları isə öz növbəsində həmin istehlak xassələrini formalaşdırır.

Modelləşdirmə əməliyyatı uşaq geyimlərinin modelinin və ya ilkin nümunəsinin işlənib hazırlanmasıdır. Modellər rəsam-modelyerlər tərəfindən hazırlanır. Rəssam-modelyerlər geyimin həm sənaye modelini və həm də ideya-modelini hazırlayır. İdeya-model sərgi üçün, perspektiv üçün, sənaye modeli isə istehsal imkanlarını nəzərə almaqla kütləvi istehsal üçün nəzərdə tutulur. Modelin üslub ifadəliliyi dedikdə formanın, rəng həllinin, materialın, dekorativ xatlərin, biçimin modaya uyğunluğu kimi başa düşülür. Formada kompozisiya bütövlüyünə bütün elementlərin balanslaşdırılması nəticəsində nail olmaq olar. Uşaq geyimlərinin istehlak xassələrinin bütün tələblərə cavab verməsi üçün hər şey modelləşdirmə və quraşdırma əməliyyatlarından asılıdır. Bu baxımdan magistr dissertasiya işinin mövzusu olduqca aktualdır.

**İşin məqsədi və vəzifələri**. Magistr dissertasiya işinin məqsədi, modelləşdirmə və quraşdırma əməliyyatlarının uşaq geyimlərinin istehlak xassələrinə təsirinin ekspertizasından ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- modelləşdirmə və quraşdırma əməliyyatlarının uşaq geyimlərinin istehlak xassələrinin formalaşmasında rolu;
- uşaq geyimlərinin istehlak xassələrinin ekspertizası;
- uşaq geyimlərinin keyfiyyətinin orqanoleptiki və laboratoriya üsulları ilə öyrənilməsi;
- nəticə və təkliflərin işlənib hazırlanması;

**Tədqiqat obyekti**. Magistr dissertasiya işində əsas tədqiqat obyekti kimi «Bakı Tikiş Evi» Açıq Tipli Səhmdar Cəmiyyətində istehsal olunan model nümunələri, bütün növ uşaq geyimləri götürülmüşdür.

**Tədqiqat metodu**. Magistr dissertasiya işində tədqiqat metodu kimi QOST 4103-91 «Tikili mallar. Keyfiyyətə nəzarət üsulları», Q?OST 12566-88 «Məişət təyinatlı tikili mallar. Sortunun təyini», QOST 16504-81 «Məhsulun keyfiyyətinə nəzarət və sınağın keçirilməsi» standart metodlardan, həmçinin orqanoleptiki, laboratoriya, ekspert metodları, riyazi-statistik metodlardan da istifadə olunmuşdur.

**Elmi yenilik**. Magistr dissertasiya işində ilk dəfə məişət uşaq geyimlərinin istehlak xassələri orqanoleptiki və laboratoriya üsulları ilə tədqiq olunmuşdur.

**Təcrübi əhəmiyyəti**. Magistr dissertasiya işində işlənib hazırlanmış nəticə və təkliflər uşaq geyimlərinin istehsalında tətbiq edilərsə, böyük iqtisadi səmərə verə bilər.

**Aprobasiya**. Magistr dissertasiya işinin nəticələri əsasən «Azərbaycan Aqrar Elmi» curnalında (2018, №1, səh.154-156) çap olunmuşdur.

**Işin strukturu**. Magistr dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflər, ədəbiyyat siyahısından ibarətdir.

**МАМЕДОВА ФИДАН НАЗИМ КЫЗЫ**

# ВЛИЯНИЕ ЭКСПЕРТИЗЫ ПОТРЕБИТЕЛЬСКИХ СВОЙСТВ НА ПРОЦЕССЫ МОДЕЛИРОВАНИЯ И КОНСТРУИРОВАНИЯ ДЕТСКОЙ ОДЕЖДЫ

## РЕЗЮМЕ

В работе подробно рассказывается о влиянии экспертизы на моделирование и конструирование потребительских свойств детской одежды, об изготовлении проектирования новых моделей, о создании его эталона. Подробно рассказывается о производстве детской одежды на основании данного эталона, а также на первый план выдвигается экспертиза свойств потребительских товаров.

Как известно, операции моделирования и конструирования являются одними из основных операций, формирующих потребительские свойства детской одежды.

**MAMMADOVA FIDAN NAZIM**

# EXAMINATION OF IMPACT OF MODELING AND CONSTRUCTION OPERATIONS ON CHILDREN’S WEAR CONSUMPTION PROPERTIES

## S U M M A R Y

The article broadly discusses examination of impact of modeling and construction operations on children’s wear consumption properties, development of new modeling procect, its standard creation and children’s wear manufacturing based on that standard. Expertise of consumption properties of children’s wear is also highlighted.

As known, modeling and construction operations are one of the main operations that form consumption properties of children’s wear.

AzDİU-nun «İstehlak mallarının ekspertizası və marketinqi» istisası üzrə 414M saylı qrupun magistri Məmmədova Fidan Nazim qızının «Modelləşdirmə və quraşdırma əməliyyatlarının uşaq geyimlərinin istehlak xassələrinə təsirinin ekspertizası» mövzusunda yerinə yetirdiyi magistr dissertasiyasına

RƏY

Modelləşdirmə və quraşdırma əməliyyatları uşaq geyimlərinin istehlak xassələrinə birbaşa təsir edir. Uşaq geyimlərinə bir çox tələblər verilir. Uşaq geyimləri bütün tələbləri ödəmək üçün kompleks istehlak xassələrinə malik olmalıdır. Modelləşdirmə və quraşdırma əməliyyatları öz növbəsində həmin istehlak xassələrini formalaşdırır. Bu baxımdan magistrin mövzu seçimini uğurlu və aktual hesab etmək olar.

Magistr dissertasiya işi referatdan, girişdən, 3 fəsildən, nəticə və təkliflərdən, ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin referatında mövzunun aktuallığı, məqsəd və vəzifələri, tədqiqat obyekti, tədqiqat metodu, elmi yenilik, təcrübi əhəmiyyəti, aprobasiya, işin strukturu verilir. Aprobasiyada magistr dissertasiya işinin nəticələrinin əsasən «Azərbaycan Aqrar Elmi» mərkəzi jurnalında (2018, № 1, səh. 154-156) nəşr edilməsi haqda məlumat verir.

Magistr dissertasiya işində tədqiqat obyekti kimi «Bakı Tikiş Evi» ASC-də istehsal olunan model nümunələri, bütün növ uşaq geyimləri tədqiq olunmuşdur.

Magistr dissertasiya işində tədqiqat metodu kimi QOST 4103-98 – Tikili mallar. Keyfiyyətə nəzarəət üsulları; QOST 12566-98 – Uşaq geyimləri. Sınaq üsulları kimi standart metodlardan, həmçinin orqanoleptiki, laboratoriya, ekspert, riyazi-statistik metodlardan istifadə olunmuşdur.

Rəyin xülasə hissəsində qeyd etmək lazımdır ki, magistr tərəfindən müasir tələblərə cavab verən, aktual, nəzəri və təcrübi cəhətdən maraq doğuran bir dissertasiya işi yerinə yetirilmişdir. Dissertasiya işinin yuxarıda göstərilən müsbət cəhətlərini nəzərə alaraq onun müdafiəyə buraxılmasını tövsiyə edirəm.

Elmi rəhbər dos. Nağıyev Z.M.

AzDİU-nun «İstehlak mallarının ekspertizası və marketinqi» istisası üzrə 414M saylı qrupun magistri Məmmədova Fidan Nazim qızının «Modelləşdirmə və quraşdırma əməliyyatlarının uşaq geyimlərinin istehlak xassələrinə təsirinin ekspertizası» mövzusunda yerinə yetirdiyi magistr dissertasiyasına

RƏY

Xarici rəyə təqdim olunan magistr dissertasiya işi modelləşdirmə və quraşdırma əməliyyatlarının uşaq geyimlərinin istehlak xassələrinə təsirinin ekspertizasının öyrənilməsinə həsr olunmuşdur. Heç şübhəsizdir ki, uşaq geyimlərinin istehlak xassələrinin formalaşmasında yuxarıda adı çəkilən əməliyyatların rolu olduqca böyükdür. Belə bir aktual mövzuya həsr olunmuş dissertasiya işi müasir tələblər səviyyəsində yazılmışdır.

Modelləşdirmə əməliyyatı uşaq geyimlərinin modelinin və ya ilkin nümunəsinin işlənib hazırlanmasından ibarətdir. Dissertasiya işinin tədqiqat hissəsini «Bakı Tikiş Evi» ASC-nin materiallarına əsaslanaraq yerinə yetirən magistr çox haqlı olaraq qeyd edir ki, modellər rəsam-modelyerlər tərəfindən hazırlanır. Rəssam-modelyerlər geyimin həm sənaye modelini, həm də ideya modelini hazırlayır.

Dissertasiya ipşinin I fəsli ədəbiyyat icmalına həsr edilmişdir. Bu fəsildə müasir ədəbiyyat mənbələrində modelləşdirmə və quraşdırma əməliyyatlarının uşaq geyimlərinin istehlak xassələrinə təsiri tənqidi təhlil edilmişdir.

Dissertasiya işinin III fəsli tədqiqat hissəsinin nəticələrinin tədqiqindən bəhs edir. Burada modelin üslub ifadəliliyi ilə forma, rəng həlli, material, dekorativ xətlər, biçimin modaya uyğunluğu və digər elementlərin balanslaşdırılmasından bəhs olunur.

Çox yaxşı haldır ki, magistr dissertasiya işinin nəticələrini «Azərbaycan Aqrar Elmi» mərkəzi jurnalında (2018, № 1, səh. 154-156) nəşr etdirmişdir.

Dissertasiya işinin sonunda verilmiş nəticə və təkliflər uşaq geyimlərinin istehsalında tətbiq edilərsə, böyük iqtisadi səmərə verə bilər.

Xarici rəyin yekun hissəsində qeyd etmək lazımdır ki, magistr tərəfindən tam başa çatmış bir elmi-tədqiqat işi yerinə yetirilmişdir.

Dissertasiya işi müasir tələblərə cavab verir, aktual, nəzəri və təcrübi cəhətdən maraq doğuran bir problemə həsr edildiyindən, onun müdafiəyə buraxılmasını təklif edirik.

«İstehlak mallarının ekspertizası»
kafedrasının dosenti t.e.n. M.A.Babayev